**ARZU**

# BİR İGİD VAR İDİ...

***(Həyat yoldaşım, şəhid təyyarəçi baş leytenant Yusif Yaqub oğlu Vəliyevin xatirəsinə)***

(***Poema***)

**"Elm və təhsil"**
**Bakı -2024**

**Redaktor:** Fəxrəddin Teyyub
***şair***

Arzu Kazım qızı Nehrəmli. Bir igid var idi...
Bakı, "Elm və təhsil", 2024, 148 səh.

Çoxşaxəli yaradıcılıq yoluna malik tanınmış şair, nasir, publisist, tarix üzrə fəlsəfə doktoru Arzu Nehrəmlinin bədii yaradıcılığında insanın taleyi Vətənin taleyi və millətin tarixi ilə qırılmaz şəkildə əlaqələndirilir, Vətənin sevinci vətəndaşın sevinci, Vətənin ağrıları da vətəndaşın ağrıları kimi təqdim olunur. A.Nehrəmlinin həyat yoldaşına – ana yurdumuzun ağır günündə canını bu torpağın azadlığı uğrunda fəda etmiş qəhrəman təyyarəçi baş leytenant Yusif Yaqub oğluna həsr etdiyi "Bir igid var idi..." poeması müharibənin insan ömründə saldığı daim göynəyən izlərindən soraq verir.

4702000000
N-98-2026 qrifli nəşr

**© Arzu Nehrəmli, 2024**

# BİR İGİD VAR İDİ...

***(Həyat yoldaşım, şəhid təyyarəçi
baş leytenant Yusif Yaqub oğlunun xatirəsinə)***

Bir igid var idi, bir də göy səma,
Uçardı buluddan, buluddan uca.
Qartal qanadıyla yarıb səmanı,
Süzərdi, doymazdı göylər boyunca.

Bir igid var idi göylərə bağlı,
Sanki yaranmışdı tərtəmiz nurdan.
Uçardı səmanın dərinliyinə,
Alardı ilhamın günəşdən, aydan.

Bir igid var idi, min bir diləkli,
O gün diləyinə göylər son qoydu.
Aldı başı üstün qara buludlar,
Göylər oğlu idi, göylərin oldu.

...Uzağa gedən bir gündə "Qırmızı torpaq" məhləsinə havadan vertolyotla həmişəbahar bildiyimiz qızılgüllər və onlara bağlanmış vərəqlər səpələnmişdi. Vərəqlərdə yazılmışdı: "Mənim Arzum! Sənin Yusifin!"

Qəzəbimə səbəb olan, dünyada analoqu olmayan bu romantik hərəkətə qarşı hərəkata keçib bu işi törədənin – kəndlimiz olan oğlanın ünvanına dünyanın ən ağır söyüşlərini söyüb, bir sözlə, kobudluğumun əlamətlərini göstərmişdim. İpə-sapa yatmayan dəli bir qız olsam da, utandığımdan bir müddət qonum-qonşunun üzünə çıxa bilməmiş, özüm özümü ev dustağına çevirmişdim.

Bu romantik günün özəlliyini unuda bilməyib dili ağzına girməyən qonşularımızsa hər oturduqca təkrar-təkrar o günü xatırlayır, elə bil mənim nəslimə söyürdülər.

Xoşbəxtlikdən bütün məhləyə, həyətlərə səpilən bu güllərdən bir dənəsi də olsun bizim həyətə düşməmişdi. Ən böyük toxtaqlığımı da elə ondan almışdım. Hər dəfə üzümü göyə tutub deyirdim: "Al eeeee... Sən səpələməklə deyil ki. Sənə bu da azdır, Qara Yaqubun oğlu!"

El-aləmin kənd soveti, aqronom, briqadir, dönə-dönə Azərbaycanın deputatı kimi tanıdığı bu oğlanın atası olan zəhmətkeş, üzüağ kişinin təbii rəngini - qaralığını üzünə elə vurmuşdum ki, ürəyimdən qızılgüllərin tikanlarından da artığı çıxmışdı...

Romantik gündən illər keçmişdi. Deyir sən saydığını say, gör fələk nə sayır.

Mənim gözümdən qaçırıb, Yusifin hər zaman özü ilə daşıdığı, uçarkən geyindiyi hərbi geyimi olan çantasını babagildən (Yusifin atasıgildən) gətirib anamgilin evinin çardağında gizlətmişdilər, yəni mənim gümanım gəlməyən bir yerdə.

Günlərin birində birdən elə bil mənə "Çardağa qalx" - dedilər.

Heç bir tərəfi görünməyən, üstünə qara çadır çəkilmiş çantanın içindən Yusifin əynindən çıxardığı,

uçarkən geyindiyi paltarları qoxlamaq üçün bağrıma basıb burnuma yaxınlaşdıraraq üzümü göylərə tutub nalə çəkib fəryad qoparmaq istəyəndə gözlərim azacıq gün işığı düşən peç turbası ilə dam örtüyü arasında sıxışıb başıaşağı bir-birinə sarılmış iki qızılgülə sataşdı. Qırmızı donunu sarı xəzana dəyişmiş güllər uzaq romantik günün xatirəsini danışırdılar. Təkcə bunu deyə bildim: "Mənim Yusifim, sənin Arzunam!"

***

Hər ömür beləcə dönməz dastana,
Hər ömür cənnətə apara bilmir.
Ömür BİRİ VARdan başlayır, amma...
Ömür BİRİ YOXla qurtara bilmir.

Ömrün sevda günü çox ələndi, çox,
Yar olmur həsrəti yar olanların.
Burdan məhşərəcən YOX tərəfi yox,
Bu üzdə, o üzdə VAR olanların.

Zülmətin canından söküləmməz dan,
"Bu dünya başıma dardı" deyəcəm.
Hər dəfə "bir ARZU öldü əzabdan",
Hər dəfə "BİR İGİD VARDI" deyəcəm.

***

Sevgidi gerçəyi, sevgi röyası,
Həmişə bu hissin yanında olur.
Vətən məhəbbəti, torpaq sevdası,
Belə igidlərin qanında olur.



Bilsə ki, kimlərsə kəsilib qənim,
Bilsə ki, torpağa baxan yağı var.
Vətən səmasından birbaş düşmənin,
Üstünə şahintək şığımağı var.

Ta ağlı kəsəndən hər şeydən əvvəl,
Onun ürəyinə çökən sevgidir.
Dinləmək istəyən, bir az yaxın gəl,
Onu savaşa da çəkən sevgidir.

Dünən də beləydi, belədi bu gün,
Taledən verilən qismətə yarıq.
Həmişə eləcə bildik onunçün,
Birinci Vətən var, sonra biz varıq.

Tanrının hökmüdü, neynəsin bəndə,
Bir gün çəkməlidi kədərdi, qəmdi.
Sonradan anladıq başa gələndə,
Belə talelərin vüsalı kəmdi.

***

İndi başlayacam bir acı dastan,
Nədən başlayacam demək çətindi.
Dastanın bu başı Vətən sevdası,
O başı ilahi məhəbbətindi.

Yerdə mən qoruyum, səmada da sən,
Göydə eşqimiz var, yerdə eşqimiz...
Bizimçün hər şeyi var eyləyənsə,
Vətən sevdasıdır, bir də eşqimiz.

Hər gecə saralıb, gültək solduğum,
Bəlkə uzaqlaşıb itəndi, vallah.
Dağına, daşına qurban olduğum,
Göydə də, yerdə də Vətəndi, vallah!

***

Bəlkə elə ilk kəlməni
Səndən başlayım... Nə bilim...
Bircə kəlmə xəbər göndər,
Nədən başlayım... Nə bilim...

Nə ad verim bu həsrətə,
Parçalanmış məhəbbətə...
Yerdə başlayım söhbətə,
Göydən başlayım... Nə bilim...

Qurtardımı söhbətimiz...
Yarıtmadıq qisməti biz,
Sıfırlandı qismətimiz,
Birdən başlayım... Nə bilim...

Ömür yolumda bitdiyin,
Özünə heyran etdiyin...
Ya məni qoyub getdiyin,
Yerdən başlayım... Nə bilim...

## VƏTƏN SEVDASINDAN BAŞLAYAN HƏSRƏT

Yolunda qayatək bitən eşqinə,
Vüsalı yaddaşdan itən eşqinə.
Başlasın bu həsrət Vətən eşqinə,
Atəşi də gözəl, odu da gözəl.

Adı çəkiləndə gəlirik cana,
Könül bu sevgidən çətin usana.
Canım sadağadır Azərbaycana,
Mənim Vətənimin adı da gözəl.

Hər gün qənşərində dururam, gerçək,
Gözümdə boğulan gözüm yaşı tək.
Vətən torpağının hər qarışıtək,
Vətən həsrətinin dadı da gözəl.

***

Düşmən tapdağında qalıb parçası,
Durub düşünmədik torpaq, ya da biz...
Səninçün ucaymış Vətən sevdası,
Nə yaxşı düşmədik onda yada biz.

Nə sən geri durdun o gün, nə də biz,
Vətən var olarsa, hamımız varıq.
Neçə ki, sevgiylə vurur qəlbimiz,
Düşməni torpağa yaxın qoymarıq.

Torpaq aşiqiydin sən lap əzəldən,
Vətən ağrısına yanırdı için.
Həmişə düşündün görəsən nədən,
Niyə ağrı çəksin Qarabağ, neyçün...

Düşmənə nifrətlə için dolanda,
Əllərin həmişə yaraqda idi.
Vətənin başını duman alanda,
Vətəndən bir az da qıraqda idin.

Vətən sevdalılar torpaq bəhsinə,
Atırdı özünü qor dağın üstə.
Sənintək igidlər güllə səsinə,
Gərdi sinəsini torpağın üstə.

Qarabağ qalmışdı yad nəzər altda,
Rahat buraxmırdı qürbətdə səni.
Yerin başqa idi bu hərəkatda,
Hamı xatırlayır söhbətdə səni.

Qoymuşdun mizana yaxşını-pisi,
Dözmürdün torpağın rəngi solmağa.
Gəlirdin içində Vətən sevgisi,
Gəlirdin Vətənə şəhid olmağa.

Gəlirdin Vətənə quş qanadında,
Sən elə özün də odsan, ocaqsan.
Bir hikmət varıydı bu inadında,
Vətəni göylərdə qoruyacaqsan.

Vallah, bu, taleyin möhnəti deyil,
O səhər nə dindin, nə də danışdın.
Bu günün, dünənin söhbəti deyil,
Sən çoxdan özünün hazırlamışdın...

***

Sənin Vətən sevgin doğulan gündən,
Mayana qarışıb ana südüylə.
Yaqub ata səni elə bil dünən,
Böyütdü VƏTƏNİ SEV öyüdüylə.

Siz qalib gələrsiz çoxluğa təklə,
Sizi istəsən də haqlamaq olmaz.
Belə sevgiləri topla, tüfənglə,
Düşmən qabağından saxlamaq olmaz.

Heç nə gözümüzdən bir an qaçmayıb,
Keçmişə yol açıb baxırıq gendən..
Qarabağ söhbəti dünən başlayıb,
Sənin Vətən eşqin sən olan gündən.

Məni öndəkilər bir az duyarsa,
Arxada qalanlar bir az üşüdür...
Qismətdə şəhidlik taleyi varsa,
Varsa yaşanacaq, Allah işidir.

Yusif Yaqub oğlu, qismətə bir bax,
Ata da, oğul da peyğəmbər adda.
Müqəddəs bir ömür yaşandı, Allah,
Vətən də bir ömür saxladı yadda.

Səndəki əzəmət deyildi xəyal,
Elə o  sevgidən, qürurdan gəlir.
Bəlkə canındakı müqəddəs amal
Kökündə çağlayan o nurdan gəlir.

Toxundun, oyatdın o sarı simi,
Şəhidlik adında taxtda durmusan.
Sən cavan ömrünü igidlər kimi,
"ÖNCƏ VƏTƏN!" deyib başa vurmusan.

Ürəyimdə ağrı, gözlərimdə qəm,
Mən daha həsrəti həmdəmim bildim.
Gizlənqaç oynadıq, tapa bilmirəm,
Qaçıb gizlənəni gör neçə ildi...

***

Nə gözəl gəlişdi, bir danış, bir din,
İçində qələbə əzmi, gəlirsən...
Üzü Vətən sarı havada idin,
Tapmısan düşməndən izmi, gəlirsən...

İndi anladım ki, təzə-tərmişəm,
Eybi yox, çəkilsin üzümdən nəşəm.
Belə atəşindən heyrətlənmişəm,
İçində alovmu, közmü gəlirsən...

Düşmən duymalıdır polad qolunu,
Döyüşdə parçala sağı-solunu.
Göylərdə çaşdırma evin yolunu,
Yerə bax, yolları düzmü gəlirsən...

***

Gözün Vətən görür hayana baxsan,
Ağrıya-acıya şahidliyin var.
Özün də bilirdin bəlkə nə vaxtsa,
Alnına yazılan şəhidliyin var.

Sabah nə olacaq, nə olub dünən,
Qürbətdən Vətənə eşqlə dönürdün.
And içib bu yola çıxdığın gündən,
Bircə Allah bilir nə düşünürdün...

Çoxdan düşünmüşdün dərindən-dərin,
Gəlirsən qürbətdən Vətənə kimi.
Yolun o başında əzmin, təpərin,
Gedir şəhidliyə yetənə kimi.

Kimsəyə deməzdin içindəkini,
Gizli sevdaları görmək olmayır.
Bəzən igidliyi olduğu kimi,
Misranın gücüylə vermək olmayır.

Nə istədiyini gəl özün söylə,
Söylə ki, torpağın dadına gəldim.
İçindəki eşqi elə car eylə,
De: "Ana Vətənin dadına gəldim!"

Söylə sən tutmusan elə bir yol ki,
Unutdum özümün dərdi-sərimi.
Söylə: "doğma Vətən, arxayın ol ki,
Göydən qoruyacam sərhədlərini".

İçində ağrı var həsrət adında,
Torpaq da düşmüşdü bərəyə-bəndə.
Dünyada nə varsa çıxır yadından,
Hər dəfə ağlına Vətən gələndə.

***

Gəl, inandır sən hamını,
Qoy ortaya inamını...
Bəlkə həsrətin canını,
Üzməyə gəlirsən bura.

Səmtimizi, yönümüzü,
Səsimizi, ünümüzü...
Bəlkə xoşbəxt günümüzü,
Düzməyə gəlirsən bura.

Sorağını aldın harda,
Qəlbin dedi  Vətən darda,
Şahin kimi səmalarda,
Süzməyə gəlirsən bura.

***

Nə qalıb bu yolu getməyə hələ,
Qalan zamanımı sanki sayıram.
Gəlirsən, hər şeyi sən bilə-bilə,
Mən də bilə-bilə qarşılayıram.

Vüsalın sonuncu yaşamı qalıb,
Ömür yarıdaydı həsrət kəsəndə.
Yazılan qismətdə yarın dayanıb,
Yazılan qismətə gəlirsən sən də.

***

Torpaq harayına yetəndən sonra,
Arzu da, istək də bitəndən sonra...
Tale də, qismət də Vətəndən sonra,
Onun BİR dediyi yerdə YÜZ varıq..

Elə ki, iş çatdı Vətən deməyə,
Daha nəyi qoyub inanaq nəyə...
Dünya dağılsa da, ürək-ürəyə,
Əl-ələ, qol-qola, gözə-göz varıq.

Uca dağlarının başı qarlıdır
Səntək igidləri dağ vüqarlıdır.
Yeri də, göyü də etibarlıdır,
Göylərdə sən varsan, yerdə biz varıq.

***

Nə qalır ömrün sayına,
Hər gününə, hər ayına.
Vətənimin harayına,
Gəlişin mübarək olsun!

Arzu, istəyini mənə,
Söyləmişdin dönə-dönə.
Mən viran olacam, yenə,
Gəlişin mübarək olsun!

Canın sadağa, gəlirsən,
Daşıb-dolmağa gəlirsən.
Şəhid olmağa gəlirsən.
Gəlişin mübarək olsun!

Sən Vətənsən başdan-başa,
Hünərindi bir tamaşa...
Sabah gedirsən savaşa,
Gəlişin mübarək olsun!
Gedişin mübarək olsun!

***

Yenə savaş deyə düşürsən yola,
Bu gündən sabaha zamanımız var.
Sabahın yolları uzana nola,
Hələ ki bir günlük amanımız var.

Sabahdan göylərdə axtarım səni,
Ömür çözələnir bax varaq-varaq.
Bir il ömrümüzdə olub-keçəni,
Bir günlük zamana necə sığdıraq...

Bir əlin telimi oxşayır indi,
Bir gözün uyuyan qızımızdadı.
Ömrümüz bu qədər şirinləşibdi,
Bir az da artırıb qızımız dadı.

Bəzən üzümüzə gülüş də qondu,
Mələk yuxusunda hərdən gülüncə.
Elə bilirdik ki, bu gecə sondu,
Elə baxışırdıq dan sökülüncə.

İlahi, görəsən gözləyirikmi,
Sabah olacağı bilən sabahı...
Yükünü  bir ömür mən çəkəsiyəm,
Ayrılıq yüküylə gələn sabahı.

Nə sonuncu gecə bitmək bilirdi,
Nə də ki bir yuxu haqladı bizi.
O gecə uzandı səhərə kimi,
Uzandı, göz-gözə saxladı bizi.

Yola düşəcəksən söküləndə dan,
Vallah, ayrılığın təhəri vardı.
Bu son  gedişin olacağından,
Bəlkə gecənin də xəbəri vardı...

Bir ayrı dərdi var ayrılığın da,
Bilir ayıracaq bu gün qəti... var.
Yandırıb-yaxmağa bir can olsa da,
Nə olsun, onun da öz hikməti var.

Tələsmə, bir azdan açılır sabah,
Ayrılıqmı gəlir, eh, nə gündəyik...
Elə gözləyirik səhəri, Allah,
Elə bil ayrılıq həsrətindəyik.

...Söhbətimiz o qədər şirin idi ki, bir əsr o tərəfi, bir əsr də bu tərəfi gecəyarısına qədər bölüşüb qurtara bilmirdik. Keçmiş xatirə, xəyal; gələcək arzu, ümid – nə vardısa, yerindən edib, gecənin qaranlığından alıb, gündüzün işığına bələyib yerbəyer eləməyə çalışırdıq. Gecəni çəkib uzatmaq istəyirdik, ərşə çəkilən yuxumuzun dalınca deyildik. Hərdən söhbətarası, sözgəlişi o mənə nə isə anlatmağa, məni nəyəsə alışdırmağa çalışırdı. Amma mən heç nə eşitmir, söhbətin dəyişməsini istəmirdim.

O gün doqquzaylıq körpəmiz bir şey anlamış kimi atasının qoynuna girərək mürgüləyir, beşiyində yatmaq istəmirdi. Söz deməyi bacarmasa da, hərdən gözlərini açaraq dili ilə dodağı arasında söhbətə qarışır, atasına öz dilində nəsə demək istəyirdi.

Atası bağrına basdığı dili açılmamış körpəsinə: - "Atanı çağır", – deyib, dil öyrətməkdə idi. Mən isə: "Tələsmə, atası, hələ tezdir, çağıra bilməz. Gözlə, bir az da böyüsün", – deyirdim. O isə: "Çağıracaq, görəcəksən!" – deyirdi.

Nədənsə o gecə həmişəkindən fərqli idi. Gecəsi-gündüzü olmayan, silaha sarılmış igid üçün yuxusuzluq vərdiş halını ala bilərdi. Bəs mənimlə körpəmizə nə olmuşdu ki, bu gecəyə göz yuma bilmirdik. Səhərə az qalırdı. Kənd yeri olsaydı, xoruzların banını çoxdan eşitmiş olardıq.

Deyəsən, mən bir anlıq yuxuya dalmışdım. Yuxuya daldığımı onun ayaq səslərinə oyananda hiss elədim. Yuxu da görmüşdüm, amma yuxuda nə gördüyümü yadıma sala bilmirdim.

Hərbi zabit libasını geyinmiş Göylər Oğlu öz işində idi. Uçarkən geyindiyi döyüş paltarlarını götürüb, çantasını hazırlayırdı. Bu geyimdə Yusif gözümdə daha fərqli – qürurlu, ağayana, bir sözlə, "qabağından yeməyən" məğrur igid kimi görünürdü. Özümü saxlaya bilmədim: "Bu paltar sənə çox yaraşır, igidim!" – dedim.

Elə bu anda çantadan bir şəkil çıxardıb, mənə uzatdı: "Al, qoy evə – igidinin şəklidir. Dünən çəkdirmişəm, lazım olacaq!.." – dedi.

Mən artıq şokda idim. Onun hərbi geyimdə, zabit paltarında çəkdirdiyi bu şəkli gözüm yuxuya dalanda İrəvanda, izdihamlı bir küçədə əsgərlərimizin əlində görmüşdüm. Deyəsən, onlar hansısa bir qəhrəmanı əbədiyyətə yola salırdılar...

Çox qarışıq yuxu idi. Şəkil şəhid şəklinə bənzəyirdi, şəklə baxa bilmirdim. Baxmayaraq ki, o vaxt şəhid sözünə hələ qulaqlarımız alışmamışdı. Çünki müharibənin, od-alovun təzə-təzə qızışıb alovlandığı, hələ nizamlı-düzənli ordusu olmayan, canını Vətən uğrunda könüllü fəda edən ilk Azərbaycan şəhidlərinin tarix yazan dövrü idi...



Hər şey SON gətirir elə bil indi,
Bu görüş də sondu, bu gediş də son.
Təklikmi düşünüb ürəyim dindi,
Görən tez deyilmi bu gərdişdə son...

“Al saxla”, - deyərək uzatdı şəkil, -
“Dünən çəkdirmişəm verirəm sənə”.
Baxanda heyrətdən dondum elə bil,
Şəkil bənzəyirdi şəhid şəklinə.

Vardımı o şəklin başında qada,
İndi məzarından boylanır şəkil.
Gündüzlər məzarda, gecə röyada,
Gözümün önündə dayanır şəkil.

Nələri andırır şəkil, nələri,
İstəsən köksünə qoy, danışacaq...
Mən hardan biləydim o gündən belə,
Yusifin yerinə o danışacaq.

Bilmədim heç niyə düşdü yadıma,
Bəlkə də taleyə yazılan haqdı.
Ağlıma gəlməzdi o şəkil elə,
Sonra məzarına vurulacaqdı...



İçimi param-parça edən şəkli Yusifin təkidi ilə evdəki kitab şkafına qoydum. O şəkildəki, mütaliəyə böyük həvəsi olan, uzaqgörən baxışları ilə rəflərdəki kitabların arasından dünyanı seyr edən igid bir müddət sonra şəhid Yusifin məzarında ucalan başdaşından od-alov içində yanan Vətənə boylanacaqdı...

Atasına bərk-bərk sarılan balaca qeyri-adi hərəkətləri ilə onun gedişinə etirazını göstərirmiş kimi görünürdü. Sanki onun başını qataraq ləngitməyə çalışırdı.

Nə yola çıxmağa hazır olan igid bizdən, nə də biz ondan ayrıla bilirdik. Yenə də bağrına basdığı dilbilməz körpəsinə: "Atanı çağır, gedim", – deyirdi.

Ayrıla bilmədiyimiz günün bizi ayıran qapısına yaxınlaşmışdıq ki, evdən qəribə bir səs gəldi. Arxaya baxanda hər gün sığal-tumarımıza şahid olan bəxt güzgümüzün durduğu yerdə düşüb çilikləndiyini gördük.

Yusif: "Narahat olma, bu səfər gələndə təzəsini alıb qoyaram yerinə!" – dedi.

Mənimsə bir anda iki gün əvvəl yaxın qonşum Allanın bizə gələrək təlaşla dediyi sözlər ağlımdan

keçdi: "Bu gün güzgü sındırmışam, çox narahatam, heç yaxşı əlamət deyil"...

Çətinliklə də olsa, körpəni atasının sinəsindən qopara bildim. Lakin hər dəfə ayrılığımıza səbəbkar olan qapı bu kəz qarşımı kəsə bilmədi. Körpəmiz qucağımda igidimin arxasınca bir xeyli getdim.

Bizdən iyirmi-otuz addım aralanan atanı doqquzaylıq qızımız qəfildən dilə gələrək: "Ata!!!" – deyə çağırdı. Səsi eşidən ata geri dönüb bizə tərəf yüyürdü. "Ata" kəlməsinin sevinci gözlərində parlayan igid artıq həvəsində olduğu ən müqəddəs arzularından birinə də çatmışdı...

Biz bir-birimizə elə sarılmışdıq ki, elə bil bir daha ayrılmayacaqdıq.

Papağını balacanın başına qoyub, bizi bərk-bərk köksünə sıxan ata qulağıma astadan bunları pıçıldadı: "Özündən muğayat ol, anası. Balamı sənə əmanət edirəm! Kəndə getsən, hərdən şəhərə, evimizə gəlib, dibçəkdəki güllərimizə, akvariumdakı balıqlarımıza həmişəki kimi yaxşı baxarsan, Arzum mənim..."

Sözünü deyib getdi igidim. Növbəti arzusunun – müqəddəs Vətən arzusunun dalınca...

***

Elə bil daralır zamanın köksü,
Vaxtımız ölçülür saniyələrlə.
Qonaqmı gələcək ayrılıq özü,
Bir də uğraşarıq daha nələrlə...

Bir gün də hicrandan ömür çökməli,
Əzablar yurd salıb ürək dağında.
Hər şeyin dərdini bizmi çəkməli,
Halına yanmalı ayrılığın da...

Sanki gəlməyinə izin istəyib,
Çaparaq, atüstü gəlib çıxdı da...
Kimin vüsalına gözümüz dəyib,
İndi vüsalımız gözümçıxdıda.

***

Bu da o ayrılıq, bu da o səhər,
Bu da son görüşün, dözə bilsən, döz...
Hamı gözüyaşlı durur birtəhər,
Bir azdan gedirsən... Tükənibdi söz.

İlahi, bu ömrü sən elə düz ki,
Gözəl günümüzü bax özün gör də...
Xöşbəxt günümüzün şahidi güzgü,
Düşüb çiliklәndi durduğu yerdə.

Çiliklər önündə dayandıq belə,
Anlaya bilmədik nə deməkdi bu...
Danışa bilmədik bir müddət hələ,
Bəlkə ayrılığı gözləməkdi bu...

***

Allah, bu səhərin canında nə var,
Taleyin işinə qarışmaq olmur.
Ayrılıq anında ürək çırpınar,
Ayrılıq anında danışmaq olmur.

Axı nə deyəsən, dolan gözə bax,
Hər şeyi danışır göz yaşlarıyla.
Bir də üççə kəlmə dinən sözə bax,
MƏN SƏNİ SEVİRƏM  baxışlarıyla.

Ancaq, bundan böyük SEVGİMİZ əsir,
Hamımız o eşqin quluyuq, Allah!
Vətən savaşına hamı tələsir,
Torpaq sevgisiylə uluyuq, Allah!

Düşmənin əlində torpaq kimsəsiz,
Yoxsa gözləməli...
          birinci hansı...
Yolun bu başında nigaranıq biz.
Yolun o başında
          Vətən sevdası...

Eybi yox, gözümüz, könlümüz dolsun,
Sən də əsirisən, biz də Vətənin...
Bu səhər bizimçün ayrılıq olsun,
Bu səhər əməl də, söz də Vətənin.

Səni yola salan eşqin səsiydi,
Elə bil gəlmişdi dolan gözüylə.
Bəlkə də Allahın möcüzəsiydi,
Qızımız dil açdı ATA sözüylə.

Qayıtdın geriyə ATA səsinə,
İnana bilmirdin qulaqlarına.
Elə sığınmışdın çiçək qızına,
Həyatda var olan dövlət-varına.

Qayıtdın, bağrına basdın çiçəyi,
Ən gözəl uğuru o, diləyirdi.
Bundan gözəl olar dünyanın nəyi,
Birinci kəlməni - ATA deyirdi.

***

Göylərə hökm etdi qanadın, qolun...
Sən Vətəni seçdin, o son anadək.
Sədərək, Günnütdən başlayan yolun,
Uzandı Qubadlı, Zəngilanadək.

Bir də deyirdin ki, göydə öləcəm,
Vətənin yolunda ölüm də haqdır.
Bütün sərhədləri yerdən göyəcən,
Bizim eşqimizlə qorunacaqdır.

Beləcə başladı Vətən savaşı,
Beləcə... Ürəyin nələri vardı...
Nə bilsin naxələf, nə bilsin naşı,
Vətənin sənintək sipəri vardı.

Düşmən hücum çəkdi, amma nə fayda
Vətənin yolunda canından keçdin.
1992-ci il 12 mayda,
Göylərdə şəhidlik yolunu seçdin.

Yerlər də, göylər də nalə çəkirdi,
Xəbər tələsirdi məhrəm kəndinə.
Həmin gün göydəki igidliyini,
Quşlar gətirmişdi Nehrəm kəndinə.



***

Son gedişindən bir həftə keçmişdi. Nədənsə bu sabah mən həyəcan-təlaş içində özümə yer tapa bilmir, tez-tez göylərə boylanırdım.

Yaqub baba anasının adını qoyduğu balaca Zübeydə nəvəsini köksünə sıxmışdı. Baba-nəvə həyətdəki təzə çiçəkləmiş ağacların, gül kollarının arasında var-gəl edib fırlanırdılar. Sanki onlar da mənim həyəcanımı duymuşdular. Narahatlığını büruzə vermək istəməyən qaynanam gah körpə ilə babasına tərəf gedir, gah da mənə yaxınlaşıb: "Səhərdən heç nə yeməmisən, gəl, heç olmasa, bir stəkan çay iç, südün olsun, uşaq ac qalmasın", – deyirdi.

Qəribə səhər idi. Buludların qarasını üzünə çəkib getmiş günəş sanki bahara üzüdönük çıxıb, xəyanət etmiş kimi görünürdü. Çox darıxırdım. Yaxam qəribə bir sıxıntının əlində idi. Özüm-özümdən qaçmaq istəyirdim. Baş alıb gedəcəyim yer axtarırdım. Bu gecə də yuxu görmüşdüm.

Bu dəm qaynanam: "Arzu, anan zəng eləmişdi. Deyir dərzi donunu tikib, gəlsin, aparsın", – dedi.

Donumu tikən anamgilin qonşusu, uşaqlığımdan zövqümə və istəyimə dərindən bələd olan, bütün qonşularımız kimi məni sığallayıb əzizləyən, mənə cürbəcür gözəl donlar tikib hədiyyə edən Şərqiyə gülbacım idi. Amma budəfəki donumu öz sifarişimlə saya qara parçadan tikmişdi. Don tikdirməyi sevməsəm də, bu həvəsə necə düşdüyümün səbəbini bilmirdim. Qərar tuta bilmədiyim zamanda donu bəhanə edib, babadan uşağı istədim, qayınanamın təklifinə hörmət olaraq anamgilə yollandım. Anamgilin həyətinin də göyü qatı buludlu idi. Səsli-küylü məhləmiz sükuta qərq olmuşdu.

Təzə tikilmiş qara donum bir ömür boyu əynimdən çıxara bilməyəcəyim qədər yaraşmışdı mənə...

Anamgildə də qərar tuta bilmədim. Anama: "Evimizə gedib, çiçəklərə baxmaq istəyirəm", – dedim.

Ertə idi, saat on olardı. Elə bu dəm balaca Zübeydə üzünü göylərə tutub, bərkdən qışqıraraq ağlamağa başladı. Bu çığırtı hər kəsi həyəcana salıb, qorxutdu. Anam: "Yəqin arı sancdı", – deyib, uşağın əy-

nini axtardı. Mən isə: "Baxın, o, göyə baxır. Buludlardan qorxub", – dedim.

Ağlamaqla arası olmayan, doqquz ay heç ağladığını görmədiyimiz körpənin qəfildən içini çəkərək gözlərindən axıtdığı yaşlar bir ana kimi onsuz da darmadağın olmuş əhvalıma nöqtə qoymuş kimi oldu...

Çox yorulmuşdum, gücsüz idim. İgidimi axtarırdım. Köksünə sığınıb dincəlmək istəyirdim.

Gecə gördüyüm yuxunu anama danışdım:

- Ana, yuxuda gördüm ki, babagilin damlarının üstündəki leyləyin yuvası dağılıb. Leylək də hələ tüklənməmiş balasını dimdiyinə götürüb çarəsiz-çarəsiz ağlayır.

- Yuxunu suya danışarlar, balam. Allah xeyrə calasın. Yəqin bu gecə yaxşı yata bilməmisən, qarabasma olub.

– Yatmaq istəyirdim, Yusif çağırdı. Oyanıb həyətə yüyürdüm. Məndən qabaq baba, ardınca da qaynanam "Yusif, gəldim" deyib, darvazaya tərəf qaçdılar. Səsi eşidən körpəmiz də iməkləyib evin qapısına qədər gəlmişdi. Yusifin səsini hamımız eşitmişdik. Amma nə Yusif vardı, nə də onu gördüm deyən. Əh-

valımı sezən anam naəlac-naəlac: "Sən dur get evinizə baş çək, qoy uşaq məndə qalsın, aparma", – deyib mənə yol göstərdi.

Nəyinsə yaxınlaşdığını hiss edirmiş kimi çiçəklərə, balıqlara baxmağı bəhanə edərək çırpınan ürəyimi götürüb, kənddən şəhərə – evimizə tələsdim. Binamızın yanına çatanda buludların arasında evimizin üstündən keçən qara təyyarəni gördüm. Buludların əhatəsindən çıxmağa çalışan gözükölgəli təyyarə gətirdiyi xəbər kimi qapqara idi...

Özümü çətinliklə də olsa, binanın birinci mərtəbəsindəki mənzilimizə çatdırdım. Qapıdan girər-girməz evimizdə baş verən hadisələr sanki zamanın durduğu, həyatın bitdiyi bir yerə çatdığımı yaşatdı mənə.

Dünən ətrinə bələndiyim, seyrinə daldığım çiçəklərlə balıqlar yüz illərin xəzan olmuş payızına, unudulmuş tənha gəlin taleyinə bənzəyirdi. Dibçəkdəki onlarla çiçək arasında ləçəklərindən su daman bir çiçəkdən və özünü akvariumun divarlarına çırparaq həyatına son qoymaq istəyən bir balıqdan başqa hər şey məhv olmuşdu...

Deyəsən, artıq mən də ölmüşdüm. Çiyinlərim ağrıyırdı, çiyinlərim çəkə bilməyəcəyi yük altına girmiş kimi idi. Ümidsiz idim: gedəcəyim yer, yaşamağa dünyam yox idi.

Qayıdırdım.

Xəzan vuran çiçək taleyimi, tək çırpınan balıq ömrümü yaşamağa...

***

Bir azdan burada dağılar dünya,
Göz yaşı qarışar göz yaşlarına.
Kim cavab verəcək baxışlarıyla,
Hamının  kədərli baxışlarına...

Hələ ki, xəbərdən sarsılıb hamı,
Doğrumu, yalanmı,  bilmirəm hələ.
Qəlbimin YOX, SAĞDIR deyən inamı,
Qoy axsın göz yaşım, silmirəm hələ.

Sanki sıxılacaq dil açıb derkən,
Göylər bu xəbəri verəcəyindən..
Bir kimsə bilmirdi bu səhər erkən,
Qara təyyarənin gələcəyindən...

***

Geri qayıdan təyyarə,
Niyə rəngi qara gəldi...
İçində bütövlük yoxdu,
İçi param-parça gəldi.

Bu gerçəyi danmaz axı,
Ürəyim dayanmaz axı.
Təyyarə uçammaz axı,
Necə gəldi, hara gəldi?!.

***

Bəlkə gündüzü olmayıb,
Ömür sonacan gecəymiş...
Məni qara basır, yoxsa,
Dünya elə beləcəymiş...

Burayacan olmamışdı,
Bəlkə özüdü dünyanın?
Ağ günləri solmamışdı,
Qara üzüdü dünyanın?

Göylər yerə çəkir nalə,
Bir hönkürtü səsi gəlir.
Qara kağızın yerinə,
Qara təyyarəsi gəlir.

Sevgimizmi gəldi gözə,
Tale qənimi gətirir.
Sən apardığın təyyarə,
Yoxsa sənimi gətirir...

Bu boyda insan içində.
Ruhum niyə belə təkdi...
Xoşbəxt günlərin  köçündə,
Qara özünəmi çəkdi...

Qismətin qəlbə vurduğu,
Yarası beləmi olur...
Ağı üzümə durduğu,
Qarası beləmi olur...

Səsləməz ki pıçıltıyla,
Çağırmaz haraynan məni.
Sınağamı çəkir belə,
Bu ömür qaraynan məni...

Suallar öldürür məni,
Bu ağır şərtlə neyniyim...
Yuva eylədi sinəmi,
Bu yaşda dərdlə neyniyim...

Gedən bir də gəlməz geri,
Həsrət üzəcək... üzəcək.
Parçalanan ümidləri,
Sırasına kim düzəcək...

Kim həsrətin savaşından,
Qaça bilər, sapa bilər...
Kim belə dərdin əlindən,
Qaçmağa yer tapa bilər...

Bir ömür bu sualların,
Kim sirrini saxlar indi?..
Getmədiyin bu yollarda,
Cavabını axtar indi.

Təyyarə dumanı, çəni,
Elə bil hirslə yarırdı.
Göylər aparmışdı səni,
Göylər geri qaytarırdı.

Eh, bu gündən mənim üçün,
Doğmam qara rəngdi, Allah!
Bu nə ağrı, bu nə əzab,
Bu nə qara dərddi, Allah?!.

***

Fərqinə varmadım qaranın, ağın,
Üzümə dərd gəldi gülüşdən əvvəl.
Röyama gəlmişdi şəhid olmağın,
Gəlmişdi bu qara gəlişdən əvvəl.

Gecə elə bildik, döyüldü qapı,
Hamı sevindi ki, Yusif gəlibdi.
Bir kimsə yoxuydu, açdıq qapını,
Bəlkə xəbərindi, susub gəlibdi.

Bəlkə də susmağı səndən öyrənib,
Sakit təbiətin, həyan olubdu.
Bəlkə də göylərdə şəhid olmağın,
Əvvəldən bizlərə əyan olubdu.

Bir az əvvəlinə gələk söhbətin,
Dünya başımıza dar olubdu, dar.
Qəfildən bu yükü daşımaq çətin.
Bizi bu xəbərə hazırlayan var.

Bu dərd unutdurdu dərdi-sərimi,
Yaş gəldi gözümün yaşının üstə.
Bir gecə röyamda gördüklərimi,
Bir səhər görürəm başımın üstə.

Bu dəfə torpağın köksündə varsan,
Bu dəfə gerçəyin payı çoxuydu.
Röyada görmüşdüm şəhid olursan,
Hansı gerçək idi, hansı yuxuydu...

Yuxular tərsinə yozulurdu bəs...
Bu dəfə düzünə yozuldu, Allah!
İçimdə boğulur sonuncu nəfəs,
Vüsal günlərimiz az oldu, Allah!

Nəyi qəbul edim mən, nəyi danım,
Niyə evimizə yığışır insan...
Elə bil yuxuda şəhid olanın,
Bu gün vidasına axışır insan.

Ürəyim elə bil çəkib yükünü,
Bilmirəm ruhumun harasındadır.
Bu nakam taleyin nağıla döndü,
Gerçəklə yuxunun arasındadır.

Elə bil quşlar da qanad saxlayıb,
Göydən vida deyir sənə, görürəm.
Qara təyyarəyə hələ baxmayıb,
Bəlkə o yuxunu yenə görürəm...

Sanki durnalar da heyrət içində,
Göydə təyyarənin pozduğu səfə.
Mən bu ayrılığı, lap bu biçimdə,
Sanki yaşayıram ikinci dəfə.

Bəlkə oyanacam sanki yuxudan,
Bəlkə görəcəm ki, yanında varam.
Yorğun taleyindi məni qorxudan,
Yox, səni yuxudan oyadammaram.

Heç sən də oyanmaq istəməyirsən,
Bilirsən zirvənin adı - şəhidlik.
Sən neçə illərdi bura gəlirsən,
Ürəyinin eşqi, odu – şəhidlik.

Hər kəsin köksündə bir yanıqlı ah,
Göz yaşı həzindi, göz yaşı narın.
Tanrının verdiyi taledi, vallah,
Şəhidlik alnına yazılanların.



Çox da danışmazdın, düşəndə hərdən,
Düşmən qarşımızda mələr deyirdin.
Sənin səmadakı igidliyindən,
Döyüş yoldaşların nələr deyirdi...

Bizə danışmazdın hər olduğunu,
Baxma ki, bilirdik əməldə haqsan.
Bilmirdik bu qədər nər olduğunu,
İgidliyin qalır ha yana baxsan.

***

Hamımız əsgərik, hamımız Vətən,
Vətən aşiqiyik, gözdə nur, Allah!
Ürəyimiz Vətən, canımız Vətən,
Yerdə də, göydə də qorunur, Allah.

Gəl, qarşısını al insan selinin,
Ürək qarşısında dayana bilmir.
Elə gələnlər də yuxu bilirlər,
Heç kim bu yuxudan oyana bilmir.

Burda doğmalığı, dostu gəl, sına,
Ürək haray çəkmə - hanı yananlar...
Hamı yola salır haqq dünyasına,
Səni bu dünyada tanımayanlar.

Nə qədər əzablı, nə qədər şirin,
Bir şəhid taleyə yar ola bilmək.
Şəhidlik bax budur, sənin taleyin,
Bir dünya durduqca var ola bilmək.

Bir ömrü Vətənə verdin sadağa,
Yol gəldim hayandan hayana sarı...
Kimlər gəlmədi ki, yola salmağa,
Səni cənnətdəki dünyana sarı.

Ölüncə sevsək də bura fanidir,
Təkcə sən getdiyin haqq dünyasıdır.
Bəlkə gerçək deyil, yenə anidir,
Bəlkə də gözümün bir röyasıdır.

Sənin şəhidliyin qürur tərəfim,
Sənsizlik bir ömür ürək dağımdır.
Aslan hünərindi andım, şərəfim,
Sənin bir ömürlük var olmağındır.

İnsanlar axışır, nə doğma, nə yad,
Dil deyər, dindirsən burda hər kimi...
Peyğəmbər adıdır daşıdığın ad,
Saf ömür yaşadın peyğəmbər kimi.

Zamansız yoxluğa inanmaq çətin,
Qismət belə gəlir yoxsa, gələndə...
Sənin igidliyin, sənin qüdrətin,
Bir günün içində yayıldı kəndə.

Burda heç nə yox səndən savayı,
Ömrün səhəri sən, axşamı sənsən.
Heç vaxt yaşamadın, ömrü havayı,
Hər gün şəhid ömrü yaşamısan sən.

Hər kəsin şəhidə vəfa borcu var,
Vətən qorumağın verdiyi haqdı.
Şəhidlik yolunu seçən adamlar,
Vətəni hər yerdə qoruyacaqdı.

Elə bil sən varsan harda şəhid var,
Keçir ürəyimdən eh, nələr-nələr.
Bir az ağrımızı unutduranlar,
Səni and yerinə çeviribdilər.

Vətən sevdasının hikməti dərin,
Elə bilməsinlər gəldi də getdi.
Qoy ruhu şad olsun Ulu Öndərin,
Gəlib evimizi ziyarət etdi.

12 may 1992-ci il.

Ulu Öndər Heydər Əliyev evimizə gəlib Vətən səmasında qəhrəmancasına şəhid olmuş Yusifin doqquzaylıq körpəsini bağrına basaraq demişdi: "Çox təəssüf edirəm ki, Vətənimizin belə ağır günündə ehtiyacımız olan Yusif kimi ali təhsilli kadrımızı - təyyarəçi zabitimizi itirdik. Onu tanıyan biri kimi deyə bilərəm ki, Yusif fəxr olunası igid idi"...

Bu hadisədən 16 il sonra məktəbli Zübeydənin dedikləri: "Bütün müsbət insani keyfiyyətləri özündə birləşdirən, Dahi rəhbər!

Söykəndiyimiz möhkəm qaya, ümid yerimiz, başımıza gələn faciələrdən sonra bizə yeganə təskinlik mənbəyi olan Ulu Babam!

Mən bütün həyatımı, canımı Vətənlə bərabər sənə borcluyam. Sənin ruhun qarşısında baş əyirəm. Necə ki, sən şəxsən evimizə gəlib şəhid atamın ruhu qarşısında baş əymisən, məni bağrına basıb, hələ bir yaşına çatmamış doqquzaylıq körpənin xeyir-duasını vermisən. Sən tək mənə yox, mənim kimi minlərlə be-

lə bütün şəhid balalarının qayğısını ayrı-ayrılıqda çəkmisən. Vətənin, şəhidlərin, əlillərin, qaçqınların və bütün niskilli insanların dərdini içinə salıb, özün də şəhidlik zirvəsinə ucalmısan, Şəhid Babam!"

## YAXŞI BAX, ÖLÜMÜN GÖZƏLLİYİNƏ...

Qələbə inamı varıydı canda,
O qalan günləri bir-bir sayırdıq.
Torpaq alınanda sən olmasan da,
Sənin sevincini biz yaşayırdıq.

Sən Yaqub babanı indi bir düşün,
İnandı  o günü görəcəyinə.
Biz də sənin kimi Zəfər gününün,
Bilirdik nə vaxtsa gələcəyinə.

Əmrə müntəzirdi igidlərimiz,
Bu bir hökmü idi əzmin, inamın.
Qarabağ deyirdi bütün ölkəmiz,
Əmrinə inandıq Baş Komandanın.

Bir azca tezi var, bir azca geci,
İndi bu Zəfərə nə desəm, azdı.
İçində sevgisi, qolunda gücü,
Ordumuz qələbə tarixi yazdı.

Görüb gücümüzü çəkildi yağı,
Heç kimin qələbə düşmür dilindən.
Otuz il intizar çəkən torpağı,
44 gün savaşla aldıq əlindən.

8 noyabr gəldi Vətənə,
Nə gözəl, nə əziz səhər gəlibdi.
Bu gün qalib gəldik yağı düşmənə,
Sənin gözlədiyin Zəfər gəlibdi.

Üzlərdən çəkilmir Qələbə əzmi,
Bu təkcə sevinc yox, bir həyəcandır.
İndi bu yerlərdə yağılar gəzmir,
Bir sözlə,  Qarabağ Azərbaycandir!

***

Hamının duyğusu dərindən-dərin,
Görən möcüzədi, yoxsa nədi bu...
Şəhid zirvəsinə yüksələnlərin.
Qanıyla yoğrulan qələbədi bu.

O günü qarışdı sevinc-sevincə,
Həmin gün dünyaya gəldi nəvən də.
Sən torpağı sevib, Vətən deyincə,
Belədi, torpaq da səni sevəndə...

Sənin Vətən sevgin doğulan gündən,
Mayana qarışıb ana südüylə.
Yaqub ata səni elə bil dünən,
Böyütdü VƏTƏNİ SEV öyüdüylə.

Səndəki əzəmət deyildi xəyal,
Elə o sevgidən, qürurdan gəlir.
Bəlkə canındakı müqəddəs amal,
Kökündə çağlayan o nurdan gəlir.

Yusif Yaqub oğlu, qismətə bir bax,
Ata da, oğul da peyğəmbər adda.
Müqəddəs bir ömür yaşandı, Allah,
Vətən də bir ömür saxladı yadda.

Nəvəsi yurd-yuva qurdu babanın,
Böyük arzusunun birini  gördü.
Əlindən tutmuşdu sanki inamın,
Bu gün də Zəfərin sirrini gördü.

Ruhu indi rahat şəhid oğlunun,
Qisas alınacaq - inamı vardı.
Böyük zəfərini Azərbaycanın,
Dünya ayaq üstə alqışıayırdı.

***

Bütün arzuları yetdi yerinə,
Daha bir istəyi yoxuydu canda.
Baxır uzaqlara, baxır dərinə,
İnsan arzusuna gəlib çatanda.

Yenə nəvəsinə qaçdı haraya,
Tələsdi, bizimlə görüşmək üçün.
İçində sevinci, dilində dua,
Zəfər xəbəri bölüşmək üçün.

Elə doğma idik, elə mehriban,
Bu müdrik babayla, qəlbi dənizlə.
Həmişə bir xəbər eşidən kimi,
Gəlib bölüşərdi Zübeydəmizlə.

Zəfər xəbərini eşidən baba,
Bəlkə eşidirdi sənin səsini.
Bir də eşitdi ki, elə bu sabah,
Dünyaya xoş gələn nəticəsini.

Hər şey dəyişərmiş, özü demişdi,
İnsanın arzusu gerçək olanda,
Qızın Qarabağa gəlin getmişdi,
Gəldi Zəfər günü Zəfər balan da.

Bəzən tapa bilən, bəzən itirən,
Sən çərxi-fələyin gərdişinə bax...
Körpə ürəyilə Zəfər gətirən,
Uşağın uğurlu gəlişinə bax...

Xəbərin yanında ölüm nədi ki..
Qəlbində bir dərdi qalmadı onun.
Təkcə özü üçün sevinmədi ki,
Yerinə sevindi şəhid oğlunun.

Görəsən, xoşbəxtlik olarmı bunca,
Dilində qəhrəman oğlunun adı.
İki xəbəri də  birdən duyunca,
Babanın ürəyi dayanammadı.

Taleyə yazılan qismətə baxın,
Torpaqlar işğaldan qurtaranadək.
Yaşadı, bu ömrü bir əsrə yaxın,
Zəfər xəbərini o, duyanadək.

İlahi, sən verən hər şey gözəldi,
Yoxsa ki heyranıq ömrün nəyinə...
Ağrının üstünə qürur da gəldi,
Yaxşı bax, ölümün gözəlliyinə...

Dilində səaslənən hər söz bir inci,
Başının üstündə duran Qurandı.
Vətən bütövlüyü, torpaq sevinci.
Bütün ölümləri unutdurandı.

Oğul şəhid olub göy səmalarda,
Belə qismət olar, milyonda, mində.
Baba ruha döndü, indi də orda,
Gəldi nəticəsi Zəfər günündə.



***Zəfər günü doğulan Dərya və balaca bacısı Məryəm Yusif babalarının ziyarətində***

Demişdi, torpaqlar qoy olsun azad,
Nə zaman istəsən sonra gəl, ölüm.
Torpağın altında indi ruhu şad.
Özünü yetirdi bəxtəvər ölüm.

Bu, Tanrı hikməti deyilsə, nədi...
Elə bil oğluna xəbər apardı.
Səni görmək üçün təkcə getmədi,
Yanına özüylə ZƏFƏR apardı.

Orda ata-bala durun göz-gözə,
Qoy indi çağlasın hisslərin, duyğun...
Sizlər yaşatdınız bu günü bizə,
Altında birləşib dəmir yumruğun.

Torpaq nəfəs aldı, bir az dayanın,
Yetişdi sahibi, həyanı indi.
Bu zəfər sorağı Azərbaycanın,
Başına götürüb dünyanı indi.

Zəfərin önündə qəlbimiz dindi,
Gəldi, ömrümüzə səhərdən öncə.
Bilirəm, sənin də ruhunda indi,
Heç nə dayanammaz ZƏFƏRdən öncə.

Qələbə deyəndə düşürsən yada,
Biz səni düşündük, düşündük yenə.
Zəfəri yaşayan Yaqub baba da,
İndi bəxtəvərdi, qovuşub sənə.

Elə bil zərəflə dəyişdi dünya,
Gəldi ürəyə tən, gəldi gözə tən.
Gerçəyə çevrildi dünənki röya,
Elə bil başladı hər şey təzədən...

... Həyat heç kəsin bacara bilmədiyi ərköyünlüyümü, nadincliyimi elə susduraraq dilimi qarnıma soxmuşdu ki, məni gücsüzlüyümdən tar-mar taleyimin qarşısında baş əyməyə qədər gətirib çıxarmışdı. Ərimişdim, incəlmişdim, yarımcan olmuşdum. Təzəcə əlim çatıb, ünüm yetən arzuların sonuna yetib axırına çıxmışdım. Özü də kiməsə yar, kiməsə ana olduğumu anlayıb ləzzətini çıxarmaq istədiyim bir vaxtda. El məsəlində deyildiyi kimi: "Nə yatmışdım ki, nə də yuxu görəm"...

Baba isə gözlərinin işığının azalmasını özünə sığışdırmayaraq tuş aldığı tərəfə boylanmaq üçün addım-addım ora yaxınlaşmaqla könlünü ovundururdu.

"Balam gəlib keçər, görmərəm" deyə göylərə çəkilmiş igid oğlunun gəlməyəcəyini bildiyindən onu yox, onun yeganə nübar balasının gediş-gəlişini izləmək üçün özünü alışdırmışdı bu vərdişə.

Neynəsin axı, ahıl vaxtında övlad qayğısına ehtiyac duyduğu bir zamanda əliuşaqlı olmuşdu. Hər zaman həyatın ona çəkdirdiyi atasızlığın iztirablarından gözləri dola-dola danışan babanın özünə oxşar

yeni bir taleyi çıxmışdı qarşısına. Barışa bilmədiyi uşaq taleyini ahıl vaxtında basmışdı bağrına. Baba bu uşaqlığa, doqquz aylıq südəmər körpəsinə elə sarılmışdı ki, körpəsini nəinki nənəsinə, bibisinə, xalasına, heç mən taleyi ilə savaşan, başı dərdə qarışan anasına da arxayın ola bilmirdi. Elə bilirdi bağrından qopsa, körpəsi atasızlığını hiss edib onun yaşadıqlarını yaşayacaq. Bu yolla dünənə üsyan edir, qalib olacağına əmin kimi sabahlarla savaşırdı baba. "Balamın toyunu görüm, oğlumun intiqamını alım, öləcəyəm", - deyə ömrünü bir əsrə qədər dartıb uzatmağa çalışırdı. Unutmuşdu hər şeyi, unutmuşdu ətrafı, unutmuşdu dünyanı, bütün yer, göy, hər nə varsa, balaca Zübeydəsinin başında qərar tutmuşdu.

Mən isə çox kiçilmişdim. Babanın bağrına basdığı körpədən də körpə olmuşdum. Evin-ocağın kiçik qızına dönmüşdüm. Ətrafım aradabir dəlisovluğumdan doğan çılğınlığımı qulaqardına vurub məni yola verirdi. Necə deyim, qabağımdan qaçırdılar. Küsəyən olmuşdum. Bilirdilər ki, sözümün qabağına söz desələr, ərk etdiyim bir yer var, ora üz tutacağam. O yer isə məni bu misralarla ovundurub yola salacaq:

**A sönük ülkərim, nə deyim sənə,**
**Söykə taleyini günün birinə.**
**Al ağır yükünü çiyinlərinə,**
**Qızımın atası, anası qayıt...**

Bu yolla yaxamı ələ alan göz yaşlarımın islatdığı göynəyən sinəmin ağrısı ilə, tüstüsünə boğulduğum ocağın bir küncünə qısılmaqla babanın timsalında analığımı izləməyə göndərəcək məni. Göndərirdi də... Ətrafı bürümüş ilahi bir nəvə-baba sevgisini izləməyə.

Baba ilə nəvəni bir-birindən ayırmaq mümkün deyildi. Kim kimdən danışırdısa, baba anasının adını verdiyi Zübeydəsindən danışırdı. Dağılmış ürəyini örtən dağ çəkilmiş sinəsinə alıb, bağrında gəzdirdiyi Zübeydəsini gün üzü görməyən, qulaq sədası olmayan sözlərlə oxşayıb, əlində çıraq, gözündə nur, dizlərində qüvvət, din, iman, çiyinlərinə qonmuş mələk, yarası yarasına oxşayan vətən bilirdi. Qoxlaya-qoxlaya, üfürə-üfürə qalmışdı. Qucağındakı bal dadan əmanətə baxdıqca qocalığını unudur, dönüb həyatın sərt üzünə şillə vurur, ikrah baxışları ilə amansız olurdu. Ömrünün əvvəlindən başlamış, qocalığına qə-

dər gətirib çıxarmış bu intiqam hissləri ilə barışa bilmir, mübarizəsini davam etdirirdi. “Balamın toyunu görüm, oğlumun intiqamını alım, öləcəyəm” deyən baba fikrində qəti, taleyin amansızlığına qarşı dözümlü idi. Tövşüyə-tövşüyə belinə alıb gəzdirdiyi yükün ağırlığından yorulsa da, yorğunluğunu büruzə vermirdi. Pilləkənləri üzüyuxarı qalxdıqca zirvələr fəth edib ucalırdı, ucalardan uca baba, ağ saqqallı qoca baba. Bu təsirli yaşamın içindən hər gün bir baba-nəvə nağılı, hər gün bir baba-nəvə dastanı boy verib unudulmaz xatirəyə dönür, yaddaşlara yazılırdı. Elə bu nağılda olduğu kimi....



***3 aylıq Zübeydə Yaqub babası ilə***

Baba ilə nəvənin söhbəti həmişəki kimi o qədər şirin idi ki, kənardan burun soxub qarışmağa adamın ürəyi gəlmirdi. Onu da deyim ki, söhbət əvvəlkindən şirin olsa da, nədənsə qulağıma aradabir qan sədası, burnuma qan iyi gəlirdi. Təkrar-təkrar eşitdiyim "qan bir", "qan iki", "qan üç", "qan dörd" söhbətindən "qan beş"ə, "qan altı"ya keçməmiş qan başıma nə təhər vurdusa, beynimə sızmamış içəri girdim:

- Dayanın, qoymaram, - dedim.

Kəskin etirazımdan diksinən baba sağ dizində oturtdurduğu Zübeydəsini çevirib hər ikisinin üzü mənə tərəf olsun deyə sol dizində oturtdu. Amma hərəkətlərinin tam əksinə olaraq söhbətin tonunu mənə xətir dəyişdirib, mülayimcəsinə:

- A qızım, niyə əsəbləşirsən axı? Gedib adam kimi söz danışmışam, aparıb balamı oralarla tanış eləmişəm, adını da yazdırmışam. İndi nə təhər dayanaq?

- Mən anayam, icazə vermərəm ki, mənim südəmər körpəmə intiqam hissi aşılayıb, qana-qırğına hazırlaşdırasan. Bir də ki, ay baba, sizin heç birinizin qan-qan deyən vaxtı deyil axı. Səninki çoxdan keçib, bununku da hələ gəlməyib. Onu da bilin ki, mən öl-

məmişəm, vaxtı gələndə oğlunun – Zübeydənin atasının intiqamını alçaq düşməndən özüm alacağam.

- A qızım, bir səbrin olsun, bir dayan görək axırımız necə olur. Vallah, qan-qan deyən sənsən. Qan basmış gözlərinlə ortalığa qan salma, yavaş-yavaş anlat görək nə istəyirsən.

- Nə istədiyimi yaxşı bilirsiniz. Mən indidən uşağımın beyninə döyüş, qan yeridilməsinə yol verə bilmərəm.

Döyüş sözü balaca Zübeydəni necə qıcıqlandırdısa, özünü saxlaya bilməyib mənə qarşı çıxdı:

- Ana, mən məktəbdə heç kimlə döyüşməyəcəm, orada mən boyda uşaqlar var, hər gün gedib onlarla oynayacaq, dərs öyrənəcək, dost olacağam.

- Nə oynamaq, nə məktəb? Bəs müharibə? Bəs intiqam, qan məsələsi nə olacaq? Siz nə danışırsınız? Mən də elə se vinmişdim ki...

- Qanımız gəlib də. Baba dörddür, mən üç. Babam deyir ki, sən atana oxşamısan, onun da qanı üçdür, amma babama heç kəs oxşamayıb, o tək qalıb, qanı dörddür.

- Bəlkə babanınkı da öz atasının qanından olub, narahat olma, vaxt gələr, onun da qanının eynisini daşıyan tapılar...

Artıq məndə təşviş doğuran məsələyə aydınlıq gəlmiş, yerindən oynayaraq kükrəyib qalxan qan təzyiqim yavaş-yavaş yerini bilməyə başlamışdı. Balaca Zübeydənin məktəbə getmək üçün verdiyi analizdə qan qrupunun müəyyən olunması müzakirəsi başa çatmışdı. Səbirsizliyim üzündən utanantəhər olsam da, özümdə xeyli rahatlıq hiss etmişdim.

Qaldırdığım bu yanlış hay-küyü analığıma bağışlasalar da, yəqin ki, mən bir müddət özümü qınayacaq, baba ilə nəvənin üzünə baxmağa utanacaqdım... Bir də ki, mənə nə var e... Öz yaratdığım, təşviş doğuran belə hadisələrə artıq çoxdan alışmışdım. Hər gün gözümün qabağında səhnələşən, içində bulunduğum bu hadisələrin təsirindən yayınacaq halda deyildim, içimə çəkib, ürəyimdə yoğurub, canıma-qanıma hopduraraq dəmir gücə, polad iradəyə döndərdiyim yaşımdan yaşlı, coşqun təlaşlı ömrümü sürüb aparmaq məcburiyyətində idim...

Baba ilə nəvənin sevincinin həddi-hüdudu yox idi. Bu gün məktəb həyatına qədəm qoyan Zübeydəsi onu ən böyük arzusuna bir addım yaxınlaşdırmışdı. Azacıq da olsa, toxtaqlıq tapan narahat baba çox tələsirdi. Gözlədiyi günə çatmaq üçün günləri itələyib qovan babanın səbir kasası dolmuş kimi görünürdü. Günlər də ki babanın gözündə özlərini şirin etmək üçün deyərdin bəlkə sabahı açmamış dünənə dönürdülər.

Ömründən qovduğu günlər babanı qocalığın ən hörmətli çağına gətirib çıxarmışdı. Arzusuna addım-addım gedərək çox illər yola salmışdı. Uzağı görməyən  uzaqgörən baba əsasına söykənərək hər zaman tuş aldığı səmtə yaxınlaşa-yaxınlaşa onun son addımlığında dayanmışdı. İndi illərdir, gediş-gəlişini izlədiyi nəvəsi gələcək, babasının əlindən tutub onu evə aparacaqdı. Baba çox arxayınlamışdı, əlindəki əsasına söykənərək özünü çox güvənli hiss edirdi. Uzun illərdir gözlədiyi günlərin, "Qarabağ" intiqam savaşının və ilk savaşda canını fəda edən oğlunun yadigarı Zübeydəsinin toy gününün yaxında olduğuna əmin idi. Əmin idi həssas intiqam hissi ilə döyünən baba ürəyi.

Gözlədiyi gün qapısına gəlmişdi. Zübeydəsini işğal altında olan Qarabağa gəlin köçürürdü...

Nəvəsinə xeyir-duası, hədiyyəsi Qarabağ savaşının qığılcımları oldu. Bu arzularla "xoş qədəmli gəlin ol" dedi. Bu dəfə göz yaşlarını gizlədə bilməyib hönkür-hönkür ağladı. Bu yaşları sevincindən doğduğu üçün hamımıza göstərdi. Həyata özünü, gücünü, qabiliyyətini göstərdi baba!

Günlər-aylar sonra alışan savaş qığılcımları azğın düşmənin altına top qoyub

başından tufan çıxarmışdı. Bir müddət idi evdən bayıra çıxmayan baba "sabah Zübeydə məni görməyə gələcək" deyə təlaş içində idi. Təkcə səsini eşitmək onu qane etmirdi. Uşaqlaşmışdı baba, anasının adını verdiyi Zübeydəsini "anam gələcək" deyib gözləyirdi. Gözü qapıda qalmışdı, nədənsə bu gün çox fərqli, həyəcanlı görünürdü. Gözləri yol çəkirdi.

Gözünü dikdiyi qapıdan qəfildən girən zəfər müjdəsi xəbəri babanı yerindən oynatmışdı. Zübeydəsini axtarırdı, bu xəbəri ilk olaraq onunla bölüşmək istəyirdi.

Bir az sonra ikinci xəbər də gəldi: Zübeydəsi ana olmuşdu. Baba illərdir dərə bilmədiyi nəfəsini dərərək əllərini açıb: - "Allah, şükür", – dedi. Bizə gülümsəyib getdi.

Gülə-gülə getdi baba, qanı yerdə qalmayan zabit oğlunun yanına. Zəfər müjdəsini və bu gündə doğulan qarabağlı balasının sevincini bölüşməyə. Amma baba sevincindən tələsik getdiyi üçün bir xəbəri eşitmədi. Zəfər günü doğulan qarabağlı körpə qızın qanı "qan dörd" imiş...

***

Dözə bildim burayacan,
Dözüm nə qədər, İlahi!
Bu gün nə xəbər gələcək,
Sabah nə xəbər... İlahi!

Gülmək istəsəm, gülmürəm,
Gözüm yaşını silmirəm.
Bildiklərimi bilmirəm,
Çəkirəm nələr, İlahi!

Ömrüm çiçək kimi əsən,
Nədir yolumuzu kəsən...
Dünyada gerçək bir sənsən,
Bir də şəhidlər, İlahi!

***

Boylanıram hər təyyarə səsinə,
Gedirsənmi, gəlirsənmi... Bilmirəm...
Niyə düşdük bu taleyin nəhsinə,
Gözlərini silirsəmi... Bilmirəm...

Sənsiz ömrü daşıyıram birtəhər,
Elə bil ki, gözləyirəm bir xəbər.
İnanmışam görüşərik bir səhər,
Sən də belə bilirsənmi... Bilmirəm...

***

İndi ziyarətdir məzarın sənin,
Şəhidlik adı var ucalığında.
Dilimdə bir nəğmə dolanır hər gün,
Dolanır içimin həsrət dağında.

Çox erkən tələsdin nağıl olmağa,
Ay mənim qanadlı, ağ atlı gülüm.
Hələ gün görməmiş məsum üzümü,
Günaha batmamış ağartdın, gülüm.

Səni yola saldım yaz səhərində,
Müqəddəs naməyə döndün sonunda.
Dədəm qopuzunda, şah əsərində,
Xan Qazan, Dəli Domrul, Basatdın, gülüm.

Səni uçurtduğum yerdə qalmışam,
Burada özümə məskən salmışam,
Həsrət yuxusuna elə dalmışam,
Bəlkə bir gün gəlib oyatdın, gülüm?!

Hər kəs üz tutduğu yerdəsən, gəlmə!
İnam yeri də sən, Pir də sən, gəlmə!
Harayla mən gəlim, bir də sən gəlmə,
Burası beş günlük həyatdır, gülüm.

***

Qoyub getdiyin mələyin,
Sənsiz yaşamağı zülüm.
Bütün həsrət çəkənlərin,
Sənə oxşamağı zülüm.

Ömrə boylanıram hərdən,
Nə yar qaldı, nə də həmdəm...
Yolların yuxarısı qəm,
Bir az da aşağı zülüm.

Hicrana dözür o yar ki,
Bir gün dərdini oyar ki...
Dərdi çəkməyə nə var ki,
Dərdi daşımağı zülüm.

## BU DA SƏNSİZLİKDƏ KEÇƏN İLLƏRİM

Ayrılıq günündə danışammadım,
Kəlmə də demədim, sanki lalmışam.
Təkcə sənsizliklə barışammadım,
Odur, viranlıqda azıb qalmışam.

Nə sağı bəllidi, nə də ki solu,
Geriyə qayıtmaq istəmirəm çox.
Azdığım məkanın xoşbəxtlik yolu,
Azdığım məkanın bələdçisi yox.

Gözümün yaşını külək silir ki,
Ömrü bu zülümlə yaşayan olmaz.
Ayrılıq bilir ki, həsrət bilir ki,
Onları mənimtək daşıyan olmaz.

***

Qaldım həsrətinlə nəfəs-nəfəsə,
Göz yaşı içində keçir günlərim.
Həsrətəm bir sözə, bir isti səsə,
Bu da sənsizlikdə keçən illərim.

Nəyə nalə çəkək, sevinək nəyə,
Kimsə gələcəkmi, biz səsləyirik...
Analı-balalı çəkib sinəyə,
Gör neçə ildir ki, dərd bəsləyirik.

Ürəyim boşalmır, ha dolub-daşam,
Mənəm üzüdönük, yoxsa ki sənmi...
Balaca Zübeydə hər səhər-axşam,
"Qayıt, ata!", - deyir, eşidirsənmi?..

Səninlə anamı görəndə qoşa,
Fərəhdən ürəyim gəlirdi cuşa.
Nə tez bu qoşalıq yetişdi başa,
Gəl qoyma anamı qüssəyə bata,
Qayıt evimizə, qayıt, ay ata.

Getdiyin günlərin çevrildi ilə,
Daha qəlb dözməyir, gəlibdir dilə.
Həsrətin, yoxluğun dönüb nisgilə,
Didir ürəyimi qoymayır yata
Qayıt evimizə, qayıt, ay ata.

Cansız şəkillərdən iyini aldım,
Onlarla bir yatıb, birgə oyandım.
Niyə məndən doyub, məndən usandın,
Kaş əlim bir daha əlinə çata,
Qayıt evimizə, qayıt, ay ata.

Uzaqdan xəyalın əl eyləyir, əl,
Hər nə var ürəkdən duyan qızının.
İndi öz yuvası, öz evi var, gəl,
"Qayıt evimizə" deyən qızının.

Günlər aya dönür, il olur aylar,
Həsrətin yıxdığı ömürdü, gedir.
Bizim sevgimizə şahid ağaclar
İndi ayrılığa şahidlik edir.

***

Yaman əsib-coşan idin,
Çağlayandın, daşan idin.
Bir vaxt nəğmə qoşan idin,
İndi sakit olan söyüd.

De, bu görkəm nədən oldu?
Şax gövdənə kədər doldu.
Xəzan vurdu, rəngin soldu,
Xəyallara dalan söyüd.

Qəlbi daşdan bərk gəlmişəm,
Sığalını çək, gəlmişəm.
Sorma niyə tək gəlmişəm,
Saçlarını yol, ay söyüd!

***

Təyyarə görəndə bu ürək neylər,
Hər yerdə vurulmuş şəkili qalıb.
Səni əlimizdən qopardı göylər,
Gözümüz göylərə dikili qalıb.

Necə qərq olmusan uca göylərə,
Mən səni geriyə ala bilmirəm.
Gözlərim dikilib getdiyin yerə,
Başımı aşağı sala bilmirəm.

Sən uca göylərin qüdrətinə bax,
Qışında donmuşam, çəndə itmişəm.
Aparıb oraya səadətimi,
Özüm öz əlimlə təslim etmişəm.

Doğsun yaz günəşi elə doğsun ki,
Aparsın ömrümdən dumanı, çəni.
Gərək məndə elə dözüm olsun ki,
O cür ucalığa qısqanım səni.

***

Az qalır ürəyim xəyalda aza,
Heykələ qaçıram, varım-yoxum, gəl.
Çatanda sən adda bir əlçatmaza,
Hər dəfə deyirəm, qızım, yaxın gəl.

Yaxın gəl, can bala, öp bu heykəli,
O sənin atandır daşlaşıb burda.
Daş olub gözlərdə, qəlblərdə isə,
Yüksəlib yenilməz ulu dağ boyda.

Öp, qızım, heykəli, sarıl boynuna,
Qızdırsın qoy səni soyuq daş qoynu.
İsin bu soyuqdan və bil ki, bala,
Daşlaşmış heykəldir mərdliyin sonu!




*Zübeydə atası Yusifin büstünün açılışında*

***

Ataya gətirən yola,
Cığıra, izə bax, Allah!
Daş heykəlin ağuşunda,
Açılan yaza bax, Allah!

Gözünü yaş bürüyəcək,
Daşa baxıb kiriyəcək...
Daş da olsa əriyəcək,
Əriyən buza bax, Allah!

Sızıldadı yenə yaram,
Ağrın varsa məndə, varam.
Göz yaşıyla susub duran,
Körpəcə qıza bax, Allah!

Başda tacımız görünər,
Qardaş-bacımız görünər,
Ağrı-acımız görünər,
Sən ordan bizə bax, Allah!

***

Bir-iki xoş günün sıralanmadı,
Ata sevgisinə heyranam, Allah!
Bir dəfə köksünə sarılammadı,
İndi daş köksünə sarılmağa bax!

Ağrısı böyükdü onun yaşından,
Körpə ürəyində bir həsrət dindi.
İşə bax, ən soyuq məzar daşından,
Ən doğma nəfəsdi aldığı indi.

İlahi, nələri gətirir yada,
Bu nə darıxmaqdı eh, bu nə duyğu...
Nəynən üz-üzədi, anlamasa da,
Atanın köksüdü, anladığı bu...

Xatırlaya bilməz üzünü belə,
Son dəfə gələndə yaşı yoxuydu.
Ondan çəkəmmirdi gözünü belə,
Onda bu taleyin qışı yoxuydu.

O gündən başladı qış da, sazaq da,
O gündən qismətin üstə qar yağır.
Bir az yaxındadır, bir az uzaqda,
Səsin də yetişməz ha səslə, çağır...

Körpəcə ürəyi, göz yaşı narın,
Hələ qönçə ikən solmağı dəhşət...
Bir ömür qəlbində yurd salanların,
Həm yaxın, həm uzaq olmağı dəhşət.

Dön uşağa sarı, üz çevir bəri,
Ay biçarə ürək, nələri düşün...
Heykələ sığınmaq hələ əvvəli,
Bundan sonra gələn illəri düşün.

Köksündən ayrıla bilməyir hələ,
Sən ki ayrılıqdan halısan, axı...
Bir dön  için-için ağlayan gülə,
Şəhidlər ölməzdi, canlısan axı.

Körpənin içindən nə keçir hələ,
Bir ömrü yaşasın bu dərd içində.
Elə sığınıb ki, o daş heykələ,
Sanki daş heykəl də heyrət içində.

Tamaşaya durun, ay ellər gəlin,
Bu gün danışan da ruhun səsidir.
Köksünə sığınıb, sənin heykəlin
Dünyanın ən gözəl mənzərəsidi.

Gözümlə gördüyüm bu görüntüyə,
İçim çilik-çilik olub  o gündən.
Dedim, niyə dedim bilmirəm, niyə,
Dedim unudaram böyüdüyündə.

Hə, o da böyüdü, sənsizliyin də,
Həm ona tapındım, həm də ruhuna.
Tez-tez o günləri xatırlatmıram,
İstəmirəm hicran ona toxuna.

Ata ağuşunda bir dünya qurub,
Dünyanın ən şirin təmənnasıdı,
Canlı da, cansız da atadır durub,
Daş heykəl olanda nə olasıdı...

Fikri uzaqlara apara bilməz,
Gəlib məzarına, gəlib o başdan.
Heç kim o məzardan qopara bilməz,
Atanın ətrini alır o daşdan.

***

Özüm də bilmədim daşıydım, nəydim,
Gözümdəm od çıxar bir kərə gülsəm.
Sənsiz yaşamağı öyrənəmmədim,
Barı unutmağı öyrənə bilsəm.

Verdiyin həsrətin yükü ağırdı,
Elə bil göy qopur çiyinlərimdə.
Deyirəm bəlkə də məni çağırdı,
Qulağım səsdədir... günün birində...

Günlərin birində... nə bilmək olar,
Nə bilmək olar ki, sən gəlcəksən...
Bir fikrin varsa da gizləmə nolar,
Yoxsa unutmağı öyrədəcəksən...

Sadəcə qulaq as, nə danış, nə din,
Elə bil sükutla məni anırsan.
Sən də ayrılığa öyrəşəmmədin?
Yoxsa ki cənnətdə daldalanırsan...

Qırılıb-tökülür qanadı-qolu,
Gözləmir zəmanə, gözləmir insan.
Öyrənə-öyrənə dirənir yolu,
Öyrənə-öyrənə tükənir insan.

***

Gözüm yolda, yollar haça,
Bu yolda tək başım uca,
Dizlərimi quca-quca,
Unutmağı öyrənirəm.

Fikrim çəkir məni hara,
Könlüm olur para-para,
Çəkilmişəm bir kənara,
Unutmağı öyrənirəm.

Gileyim yox belə dəmdən,
Saçlarıma düşən dəndən,
Ayırmayın məni məndən,
Unutmağı öyrənirəm.

Dadıma çatmadı ölüm,
Bağrım çat-çat, bölüm-bölüm,
Susun, diksinməsin könlüm,
Unutmağı öyrənirəm.

***

Bilmədən arxada qoyduq nələri,
Həsrətlə qol-boyun olanda bilir.
İnsan yaşadığı xoşbəxt günləri,
Günləri arxada qalanda bilir.

Yenə də dünyanın bizim vaxtları,
Yenə də vüsalın yar olan çağı.
Dünyanı bölmüşdük yarıbayarı,
Olaydı vüsalın var olan çağı.

Adın həkk olurdu onda adıma,
Gəldi xatirimə, varıydı yeri.
Bilsən nələr düşür indi yadıma,
Nişan üzüyümün hikməti, sirri...

Uzun sürən bir həsrəti,
Xoş günümlə yola saldım.
Həmin günü  aşiqimə,
Bir üzüklə nişanlandm.

Üzük sarcaq barmağımı,
Qayğım artdı, yaşa doldum.
Ərköyündüm, uşaq idim,
Dönüb bir gənc gözəl oldum.

Üzük kimi par-par yandım,
Bəxtim açdı çiçək-çiçək.
Baxan hər kəs üzüyümə,
Söylədilər: çox mübarək!

Bu kəlmələr lalə olub,
Boyayırdı yanağımı.
Üzüksə öz işindəydi,
Bəzəyirdi barmağımı.

Baxıb sandım üzüyümə,
Bir igidin gözəliyəm.
Zənn etdim ki, bəlkə də mən
Sevgilərin əzəliyəm.

Bu adicə üzüyümdə,
Sədaqətin rəmzi vardı.
Qaşlarından oxunurdu,
Əsli andı, Leyli andı.

***

Hər tərəf xatirə, yenə dolmuşam,
Dağıda bilmirəm dumanı, çəni.
Yenə xəyallara qonaq olmuşam,
Hər şey uzaqlara aparır məni.

Səni uzaqlarda tapıram indi,
Uzaqlar nə qədər doğmadır mənə.
Bilmirəm, gah yoxam, gah varam indi,
Sağ olsun ötüşən xatirə yenə.

Görmədim qismətin daş atdığını,
Daha bütün yollar  qışadır indi.
Bir zaman taleyin yaşatdığını,
Bir bax, xatirələr yaşadır indi.

Bir də göz açdım ki, həsrət yanımda,
Baş aça bilmədm nə vaxtdan gəlir...
Bir dəli istəyim qaldı canımda,
İndi təsəllim də uzaqdan gəlir.

***

Asi olma könül, bu dərdlə varsan,
Şükür et, çəkməyə dərd ki göndərib...
Elə bil uzaqdan sən çağırırsan,
Yenə sən... uzaqlar... bir də mən qərib.

Bu evdə hər şeyin içində varsan,
Gecə parçalanan son aha kimi.
Hansı xatirəyə əlimi vursam,
Səndən danışacaq sabaha kimi.

Ayrılıq öldürdü, bu necə örnək,
Sən necə qıyırsan məntək nigara..
Səni xatirədə, xəyalda görmək,
...Nə qədər ağırmış Pərvərdigara!

Bircə işarət ver, bircə səmtini,
Mən axtara billəm, arıya billəm.
Dünyanın ən şirin xatirəsini,
Elə uzaqdan da qoruya billəm.

***

Unuda bilmərəm ötən günləri,
Məni xatirələr ayaqda saxlar.
Yazsam bircə-bircə xatirələri,
Ürək dayanammaz, dil deyib ağlar.

Təkcə keçəmmirəm bizim küçəni,
Sonu gəlməz dedik, gəldi sonu da...
Yığıb saxlayıram olub-keçəni,
Həsrətə verməyək bircə onu da.

Gəlib çatıram e, ömrün sonuna,
Yatmış arzuları oyadaq bəlkə?
Bizim vüsalımız xatirələrdə,
Bir az da əvvələ qayıdaq bəlkə?

***

Elə bil ürəyim ora tələsir,
Hər dəfə gələndə məzarın üstə.
Bir dəli ayrılıq küləyi əsir,
Bu boyda ağrının-azarın üstə.

İndi göz-gözəyik dikəl, yaxşı bax,
Yollara dikməkdən yordum gözümü.
Şən də şahidimsən, ey uca Allah,
Bax, ağı deyirəm, dinlə sözümü:

Sənə yol gəlmişəm görüşmək üçün,
Yollara saldığın iz ilə gəldim.
Gələndə vüsalın tutub əlindən,
Dönəndə həsrətin özüylə gəldim.

Soyuq taleyimiz yaranıb qışdan,
Sənsizlik ağlımı alıbdır başdan.
Sənə yol gəlməyə durub obaşdan,
Sinəmə basdığın köz ilə gəldim.

Buraya gəlişim deyildir əbəs,
Gəldim ki, səsimə bəlkə verdin səs.
Bu yerlər mənimçün əziz, müqəddəs,
Bura ziyarətə diz ilə gəldim.

Ümidim qalıbdı bir  göz yaşına,
Səni axtarıbdı gözüm nə qədər...
Yenə əyilirəm məzar daşına,
İçimdə deməyə sözüm nə qədər:

Gəldim deyim unutmusan,
Yadına sal, səslə məni.
Sən demişdin, ölüm səndən
Ayırammaz əsla məni.

Dinlə məni, dilim yanır,
Yerdə yerim, göyüm yanır,
Bax, arxamca elim yanır,
Bəsdir qoydun yaslı məni.

Gəl unutma, yar, amandır,
Hicran yolu buracandır,
Dəyişmisən nə zamandır
Aya, günə, fəslə məni.

Can harayda, ömür hayda,
Qoy birtəhər verim bada,
Burdakıtək, gülüm, orda
Gözlərsən həvəslə məni.

Bu soyuq yer mənzil başı,
Arzunu bil, "usal", naşı,
Çək üstündən bu sal daşı
Al qoynuna, bəslə məni.

Əllərim uzanır sən gedən yerə,
İçimin ağrısı dərindən dərin.
Yarısı aparır xoşbəxt günlərə,
Yarısı yandırır xatirələrin.

Bizim vüsalımız qocalmadı ki,
Sadəcə illəridi tapılmır izi.
Yerdə axtarmağa yer qalmadı ki,
Xəyallar göylərə aparmaz bizi.

Göylərə çıxmağın yolları bağlı,
Yolu sən bilirdin, getdin, gəlmədin...
Gör nələr bacardın, Vətənin oğlu,
Sən ki şəhid oldun, sən ki ölmədin.

Görürsənmi, solan gülün,
Ağrı-acısı nə boyda?..
Sən getdiyin o mənzilin,
Qapı-bacsı nə boyda?..

Gedən getdi, gəlməz bəri,
Getdi igid, getdi əri..
O dünyanın igidləri,
Qarı-qocası nə boyda?..

Ağrım-acım yüzdü, mindi,
Ürək yenə dərdlə dindi.
Bu ucalıq şəhidindi,
Ondan ucası nə boyda?..

***

Vüsallı günlərim qaldı uzaqda,
Bəlkə ömür yolu eh, bu qədərdi...
Ağrı var, kimləsə paylaşmaq olar,
Kimləsə bölüşmək olmaz bu dərdi.

Nə uddum, uduzdum bəxt savaşında,
Gəlib yetişmişdi elə bil an ki...
Hər şey dil açmışdı məzar daşında,
Sən də danışırdın  mənimlə sanki.

Gözünü gözümə zillədin xeyli,
Üzünü məzardan çevirdin mənə.
Bir az qəmli idin, bir az gileyli,
Qayıt evimizə deyirdin mənə:

Üzündə giley var, dilində ağı,
Öpüb qucaqlama daşı-torpağı.
Dur get evimizə gəlin sayağı,
Ömrümün parası, yarısı, qayıt!

Bilirəm incidib, bu illər səni,
Dondurub üşüdüb fəsillər səni.
Qınayar ürəklər, könüllər səni,
Elimin pərişan sonası, qayıt!

Axıtma göz yaşın, arxına dönnəm,
Düşərəm selinə, axına gəlləm,
Get dincəl, bu gecə yuxuna gəlləm,
Tökmə gözlərinin qarasın, qayıt!

Ürəyin dopdolu sözün qalıbdır,
Hələ çəkilməyən nazın qalıbdır,
Bir ömür istəyin, arzun qalıbdır,
İçində bir ümid varsa da qayıt!

Bilmirəm nə kimi varmışam sənə,
Bir yığın xatirə qoymuşam sənə,
Sən elə bilirsən doymuşam sənə?
A Məcnun sevdamın Leylası, qayıt!

A sönük ülkərim, nə deyim sənə,
Söykə taleyini günün birinə,
Al ağır yükünü çiyinlərinə,
Qızımın atası, anası qayıt!

***

İçimdə ah-vay çəkirəm,
Oxu qoyub, yay çəkirəm,
Gözümlə haray çəkirəm:
Gedən, nə vaxt qayıdırsan?..

Sızlayır içimdə yaram,
Susuram, deyirlər lalam...
Soruşmağa utanıram:
Gedən, nə vaxt qayıdırsan?..

İstəsən inci də, küs də,
Məndən özgə bilməz kimsə,
Bir daş altda, bir daş üstə:
Gedən, nə vaxt qayıdırsan?..

Oxunmamış bir bəstəyəm,
Gözləyirəm, həvəsdəyəm.
Hələ qulağı səsdəyəm:
Gedən, nə vaxt qayıdırsan?..

# HƏLƏ SAXLAYIRAM MƏKTUBLARINI



Ömür şüşə deyil vurub-sındıram.
Hər kəsdən gizlətdim dövlət-varımı.
Sənin səsin  gələn, səni andıran,
Hələ saxlayıram məktublarını.

Vaxtın solmasına daha gərək yox,
Mən ki saralıram qürub yerinə.
Hikməti odur ki, sanki vərəq yox,
Özün danışırsan məktub yerinə.

Saralmış vərəqlər çağırır sanki,
Durub boylanıram lap dəli kimi.
Bu nədi, elə bil yanındayam ki,
Hər məktub bir azca təsəlli kimi...

Səndən qaçdığımı xatırlayıram,
Kimə günah yazım tutub da indi.
Bir bax, hər addımda sənə qaçıram,
Səni soruşuram məktubdan indi.

Baxma ki, içimdə hələ güman var,
Bilirəm yollarım buzlu, qarlıdır.
Bircə yol qəlbimi sındırmadılar,
Məktublar nə qədər etibarlıdır...

İlahi, məktublar toxunur nəyə...
Atəşlər içində sanki yanıram.
Bir vaxt oxuyurduq deyib-gülməyə,
İndi oxuyanda parçalanıram.

Nələr danışardı nəfəsin mənə,
Yəqin suallarım düşüb dərinə.
Nə sorağın gəlir, nə səsin mənə,
Onlar cavab verir sənin yerinə.

İndi sənin yerindədir,
Səndən mənə gələn məktub.
Hər dərdimi, hər sərimi,
Məndən yaxşı bilən məktub.

Ürəyim düşdü sərinə,
Xəyal uzandı dərinə,
Sənin əllərin yerinə,
Yanağımı silən məktub.

Hər gün dərdimə qatılan,
Bağrım başında çatılan.
Bir zaman küncə atılan,
Bir zamanlar ölən məktub.

***

Görürsən, bu qədər xatirən qalır,
Amma ki, vüsalı daddıra bilmir.
Hər biri yadıma ötəni salır,
Nə xeyri yanına çatdıra bilmir.

Bəlkə xatirələr bir gün oyana,
Nələr çəkdiyimi sezmədilər ki...
Hər gün çevirirəm o yan-bu yana
Məktublar əlimdən bezmədilər ki...

Nə varsa, xatirə libasındadır,
Xatirə sarıdan qəmim yox daha.
Baxma şirin-şirin hərdən aldadır,
Nə yaxşı qalırlar, şükür Allaha!

***

Hər şey BƏLKƏlərin əsarətində,
Düşündüm gerçəyə daha dönmüşəm.
Bəlkə də ruhunun dərinliyində,
Elə mən özüm də ruha dönmüşəm.

Ya gerçək, ya da ki ruh kimi varıq,
Kimi gerçək bilək, ruh bilək kimi...
Hər evdən çıxanda sağollaşırıq,
Gəlirsən arxamca qapıya kimi.

BİZ ki, bu taleyin qismət, varında,
Gözümü üstündən necə ayıram...
Hər gün baxışların baxışlarımda,
Hər gün surətini  salamlayıram.

Yerimi-yurdumu soruşum kimdən,
Bəlkə daş qalmayıb daşımın üstə.
Göylərə ruhunu tapşıran gündən,
Hər şey ruh kimidir başımın üstə.

Mən orda qalmışam gör neçə ildi,
Səni itirərəm, ordan kənarda...
Gözümü ruhunun əlləri sildi,
Bil ki, yanındayam sən olsan harda.

Nəyin həsrətidi öldürən məni,
Nəyə tapınmışam, bilmirəm nəyə...
Çöldə ruha dönüb gəzirəm səni,
Qaçaraq gəlirəm tək qalma deyə.

Ruhun dayanıbdı evimizdə də,
Necə ki qəlbimin başında durur.
Sevgi qocalmayıb ürəyimizdə,
Elə ruha dönən yaşında durur.

Bəlkə də o gündən dəyişib hər şey,
Qarışıq düşübdür gerçəklə xəyal.
Mən səni ölümdən ala bilmədim,
Gəl, məni xəyalın əllərindən al.

Daha bacarmazsan heç sən də bunu,
Daha əsiriyəm, xəyalın, ruhun.
Bu ömrün o gündən nə olduğunu,
Bilmək istəyirsən, ruhuma toxun.

Ruh olub bu eşqin əli-ayağı,
Hələ ki donmayan qanımdasan ki...
Çöllərə düşməzsən Məcnunsayağı,
Səhərdən axşama yanımdasan ki...

Nə olsun, yanına gələ bilmirəm,
Hər şeyi gerçəkdir, yoxdur yalanı...
Nədən axtarıram hələ bilmirəm,
Bir ömür ruhunda məskən salanı.

# YUSİF DASTANIDIR VƏTƏN DASTANI



Bacarsan hicrana, həsrətə döz gəl,
Nəyə tapınım ki, haqdan savayı.
Mənim nəyim var ki, qəmimdən özgə,
Bir də sən adda yoxdan savayı.

Sən yoxsan, dillərdə hər səhər-axşam,
Ayrılıq nəğmə tək oxudur məni.
Elə bil hər şeydən qorxar olmuşam,
Təkcə düşünməyim qorxudur məni.

Ürəyi ağlayar, gözləri gülər,
Ayrılıq çəkənin ağrısı bəlli...
TƏKin çəkdiyini TƏK qalan bilər,
Geridə qalanlar adi təsəlli...

Bir azdan əl-ayaq çəkilir yenə,
Bircə mən qalıram, bir də xəyalın.
O gün ayrılanda nə dedin mənə,
Dedin əzizlərim, salamat qalın.

Töküm acığımı kimin üstünə,
Bir azdan tükənir yolum, bilmədim...
Belə ayrılığın əzabında mən,
Necə sağ-salamat qalım, bilmədim.

Elə ki, səssizlik çökür dünyaya,
Başbaşa qalıram ümidlə yenə.
Çağırsam bir kimsə gəlməz haraya,
Ürəyim az qalır hönkürüb dinə.

Gündüzlər başımı qatır düşüncə,
Birtəhər verirəm günləri yola.
Axşam taleyimi qısnayıb küncə,
İllərdi qalmışam dərdlə qol-qola...

Hamının yanında gülümsəmək var,
Göz yaşım kirimir tənha qalanda.
Səssizlik, göz yaşı, bir də initizar,
Mən indi nə deyim durub yalandan...

Bircə əlac qalıb ömürlük susam,
Harda həsrət görsən, mən orda varam.
Əgər yaşadığım bir oyundusa,
Mən uda bilmədim, təslim oluram.

Bir həsrət böyütdüm olanlarımla,
Sənin yoxluğuna yaram, deməli.
Səni yaşatdımsa yazdıqlarımla,
Onun sayəsində varam, deməli.

Elə varlığım yox, varam deyəndə,
Quruyub qalmışam yolun sonunda.
Sənin xəyalındı, o da gələndə...
Canında təpəri yoxdu onun da.

Taledi, nə qalıb, yarıyım nədən,
Mənə də bir ömrün təlaşı düşür.
Hər tələsən  gündən, ötən gecədən,
Mənim qismətimə göz yaşı düşür.

Baxmıram ötənin yaş olduğuna,
Baxıram sən gedər-gəlməz tərəfə.
Nə vaxtsa mən sənə tuş olduğuma,
Şükür eyləyirəm gündə min dəfə.

Mən ötən günləri haraylayıram,
Talesən, qismətsən, həsrətsən, nəsən...
Keçdiyim yolları sıralayıram,
Baxıram ayrılıq cərgəsindəsən.

Yar ola bilmədik arzu-kamıyla,
Bundan o tərəfə əzabı varmı...
Bir gün yol başladıq vüsal adıyla,
Ağrıyla qovrulan vüsal olarmı...

Gözləri boşalmır gözü dolmuşun,
Mən deyən taleyə oxşamır bəlkə...
Aryılıq dediyin viran olmuşun,
Səhəri bəlkədi, axşamı bəlkə...

Hər gecə çəkirəm dara, çarmıxa,
Duyğum da, hissim də sozalıb, bəlli...
Yenə qurban olum qadir Allaha,
Burdan o tərəfə nə qalıb, bəlli...

Anlaya bilmədim yarım ömürdə,
Nə gizlin qalırdı, nə bəlli imiş...
Mənə dərd çəkdirən bir yol demir də,
Hamısı yalançı təsəlli imiş.

Hər gün əlləşirəm çarəsiz kimi,
Xəyalla, ümidlə, daha nələrlə...
Yox olub təyyarə, batıbdı gəmi,
Ömrü aldadıram təsəllilərlə.

Hara tələsirdim, indi hardayam,
Həsrəti ömrümün naxışı bildim.
Mən itən qismətin sorağındayam,
Həyatlın köndələn baxışı bildim.

Ağrı da həmənki, dərd də həmənki,
Qaldım ayrılığın məngənəsində.
Axşamla səhərin qarışıb rəngi,
Bir həsrət ulayır qəlbin səsində.

***

Bu ürək adına dastan başladı,
Sonuna gəlməyə həvəsi çatmır.
Ağarmış saçından üç tel ayırdı,
Ağı söyləməyə nəfəsi çatmır.

Bir vüsal həsrətlə sürünür, amma
Hər yan ayrılığa bürünür, amma
Haraya baxırsan görünür, amma
Nə sorağı gəlmir, nə səsi çatmır.

Əlçatmaz ümidəm, çəkilməz aham,
Həsrətin əlində qalıbdı yaxam.
Cənnətdi... Yanında təkcə mən yoxam,
Bir də ki ayrılıq  nəğməsi çatmır.

***

Yenə məzar başındayam,
Dərdimə közüm tapmıram.
Göz yaşıyla danışmağa,
Dinməyə sözü tapmıram.

Ürəyim həsrəti sevir,
Bu bəxti tərsinə çevir.
Qayıdanda sənsiz evi,
O yolu-izi tapmıram.

Vüsal bu boyda-biçimdə,
Qırılıb qaldı içimdə...
Bir belə yalan içində,
Doğrunu, düzü tapmıram.

Özümə açmışam savaş,
Uzaqlarda qaldı təlaş.
Qor oluram yavaş-yavaş...
Atəşi, közü tapmıram.

Dərdimi dərə bilirəm,
Qəlbimə sərə bilirəm.
Hamını görə bilirəm,
Mən təkcə bizi tapmıram.

Biz yoxuq deməyə dilim də gəlməz,
Varıq, nə olsun ki, ayrıyıq indi...
Sən bura gəlməyin, mən də ki ora,
Çatası gününü sayırıq indi.

İnana bilməzsən saçlarım dən-dən,
Bir azca düşünmür bizi ayıran.
Əlimi üzmüşəm sən gəlməyindən,
Özüm getməyimi hesablayıram.

Hərəmiz bir üzdə qərib də olsaq,
Bəlkə Yaradan da məni eşidir.
Burda görüşməyi bacarammasaq,
Orda görüşərik, tale işidir.

***

Vüsalın üzünü gördüm eləcə,
Çiçək taleyimi görmədim, bəli.
Ömür viran oldu bir qərib gecə,
Məhşər ayağına kimi çəkməli...

Hissimi, ruhumu qəfil aparsa,
Deyərəm ömür yox, şirin yuxuymuş.
Qismətin adına yazdıq nə varsa,
Yoxsa sənlik, mənlik bir şey yoxuymuş.

Amma viran ömrün qürur tərəfi,
Bir igid dastanı qaldı yadımda.
Taleyi, qisməti, andı, şərəfi,
Sevgisi varıymış Vətən adında.

Bu gün də ruhunla gəlirik cana,
Ümid, təsəllidi bütün varıyla.
Hər gün düşünürəm səndən bu yana,
Bizi qoruyan var qanadlarıyla.

***

Bir həsrət bağrımın başını dəlir,
Nədən axtarıram, nədən yolları...
Az qala köksümə sıxmağım gəlir,
Sənin məzarına gedən yolları.

Məzarın başında cəm olsaq da, cəm,
Bilirəm həsrətdən sən də yanmısan.
Elə bilirəm ki, bir gün görəcəm,
Məzarın üstündə sən dayanmısan.

Belə düşünürəm bilmirəm, nədən,
Sənə "ölüb" demək deyildi asan.
İndi ŞƏHİD OLUB xəbərin gəlib,
Dünən yuxumda da şəhid olmusan...

Bəlkə bu ağrımı bir kimsə bilməz,
Sənsizlik içimdə dağdı həmişə.
Vətənin uğrunda şəhid olan kəs,
Demək ölməyibdi, sağdı həmişə.

Bəlkə də bir ömür sən deyə-deyə,
Qəflət bir yuxudan oyanmağın var.
Sən gələnə kimi, ruhun önündə,
Sayğı duruşunda dayanmağım var.

Təkcə daşımışam ömrü buracan,
Bəlkə gerisinə köməyin dəyər.
Mən təkcə özümü düşündüm haçan,
Eh, o gündən bəri varam ki, məgər?!.

***

Başladı ömrün darlığı,
Dərdimi götürən olsa...
Neyniyər səntək varlığı,
Mənimtək itirən olsa...

Yanım qismətin nəyinə,
Arzusu nə, istəyi nə...
Məni bircə istəyimə,
Murada yetirən olsa.

Bircə yol üzünü görəm,
İndi təkəm, indi birəm...
Qalan ömrümü verərəm,
Bir xəbər gətirən olsa.

***

Səndən sonra, səndən başqa,
Nə vardısa itirmişəm.
Sənsiz qalan günlərimi,
Burayacan gətirmişəm.

Bitməz daha ağrılarım,
Yüzdü deyə, mindi deyə,
Çəkirəm ciyərlərimə,
Sənin həsrətindi deyə.

Görənlər elə bilir ki,
Aydı, ildi yaşayıram.
Bu ömrü arxanca sənin,
İllərdir ki, daşıyıram.

***

Sarala qalıbdır gördüyün çiçək,
Yalanı nə idi, nə oldu gerçək...
Az qala bir azdan ömür bitəcək,
Ömrümə boylanan təlaş bitmədi.

Başımda şimşəklər çaxır beləcə,
Sən gəlməyən yola baxır beləcə.
Axtara-axtara axır eləcə,
Gözümdə bəslənən bu yaş bitmədi.

Sənə səslənirəm mən indi birbaş,
Hər şey bitdi deyib tələsmə... yavaş...
Torpaq nəfəs aldı, qurtardı savaş,
Mənim içimdəki savaş bitmədi.

***

Gör nə qədər zaman keçdi aradan,
Salmısan saçıma dən, yaşayırsan.
Şükür varlığına, bizi yaradan,
Həm ruha dönmüsən, həm yaşayırsan.

Elə bil günlərim sərsəri olub,
Varlığın ömrümün əsəri olub.
Ürəyim hicranın əsiri olub,
Gözümdən çəkilmir qəm, yaşayırsan.

Ayrı bir taleyi daha seçmə, yox,
Ayrılıq yolundan bir də keçmə, yox.
Viranə ömrümdə başqa heç nə yox,
İçimdə, çölümdə sən yaşayırsan.

***

Ruhuna çatırmı səsim-sorağım,
Hələ yaşayıram, elə bil daşam...
Hökmünə tabeyəm qələm, varağın,
Hələ son nəğməmi oxumamışam.

Sənsizlik ərzində ömür qubarla,
Elə bil intizar indi başladı.
Qızını qoyduğun yaşı xatırla,
Gəl gör,  nəvələrin həmin yaşdadır.

Sənsiz ötənləri varaqladımsa,
Hər sözün sən adda hikməti olar.
Sənsiz nə yazdımsa, nə saxladımsa,
Bir gün nəvələrin sərvəti olar.

Daha bundan yana açılmaz sabah,
İndi zamana da güvənmək gecdi.
Sənsiz illərimin sayına bir bax,
Sənli illərimin sayını keçdi.

Səfər gözləyirəm sən olan yerə.
Əcələ bənzəyən səfər olarmı...
İllərdir, bir cürə danışır hərə,
Deyirəm, bəlkə də gələr... Olarmı..

Mən də "gələr" dedim, sən bax bir işə,
Hələ bircə dəfə "gəlib" demədim.
"Cənnətə gedibdi" dedim həmişə,
Amma bircə dəfə "ölüb" demədim.

Sənli cənnət olar, sənsiz cəhənnəm,
Eh, məni orda da nələr gözləyər.
Bir xəbər verəni tapmadım, nə qəm,
Burda verməyəni orda kim verər...

Kim bilir orda da qallam  kölgədə,
Onsuz da taleyə əymişəm boyun.
Qələmə sarıldım orda bəlkə də,
Deyəcəm məzara qələm də qoyun.

Bir gün taleyimin qışında tapdım,
O gün qismətimi  yazan qələmi.
Sənsiz ürəyimin başında tapdım,
Ömrün dolayında azan qələmi.

Sirri açılmayan bir əfsanəsən,
Yığıb ürəyimdə dağ eyləmişəm.
Məni yoxluğunla yox eyləmisən,
Mən səni eşqimlə VAR eyləmişəm.

Ürəyə çəkilən çəkilməz dağın,
Hələ əvvəli var, sağı-solu var.
Bir günə dillərdə dastan olmağın,
Şəhid zirvəsinə qədər yolu var.

Bir az da dadını çıxart heyrətin,
İndi ürəyindən de, - nələr keçir...
Bu yoldan hamının  keçməyi çətin,
Bu yoldan Vətəni sevənlər keçir.

Sənin də ruhunu tutmasın kədər,
Torpaq bağışlamaz sonra heç kimi.
Kimsə bilmirdi ki, o günə qədər,
İçində püskürən Vətən eşqini.

Təkcə biz bilirdik ötüşən hər gün,
Sən necə qadadan, qandan keçirsən...
Sən bu torpaq üçün, bu Vətən üçün,
Gözünü qırpmadan candan keçirsən.

İndi ha qışqırım, ha susum, dinim,
Özümü yandırır çəkdiyim bu ah.
Aləmə səs salan igidliyinin,
Yanında bir dastan nədir ki, vallah.

Nə özüm murada çatdım illərdir,
Nə səni murada yetirəmmirəm.
YUSİF DASTANInı Allah şahiddir,
Bir qərinədir ki, bitirəmmirəm...

Bir dastan  yetmədi vəsf eyləməyə,
Yanında yoxamsa, deməli, sağam.
Kim bilir bəlkə də nə vaxtsa birdən,
İkinci dastanı başlayacağam.

Gəldim ziyarətə bir qərib axşam,
Bəlkə bir görüşdə yazım başlayar,
“Yusif dastanı”nı mən başlamışam,
Mən sənə çatında qızım başlayar.

Sən yoxsan, hələ ki mən danışıram,
Ömrümə, günümə bu tən dastanı.
Sənin Vətən eşqin yaşadır, varam,
Yusif dastanıdır Vətən dastanı.

# İÇİNDƏKİLƏR:

Bir igid var idi... ........................................................................3
Vətən sevdasından başlayan həsrət..............................................12
Yaxşı bax, ölümün gözəlliyinə... ..................................................64
Bu da sənsizlikdə keçən illərim...................................................89
Hələ saxlayıram məktublarını ......................................................119
Yusif dastanıdır  vətən dastanı .....................................................126

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Zahid Məmmədov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 09.11.2024
Şərti çap vərəqi 9,5. Sifariş № 458
Kağız formatı 60x84 1/16. Tiraj 200

**Kitab "Elm və təhsil"** nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4